Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

19 İYUL 2019-cu il

№ 127 (4025)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# NAXÇIVANDAN ERMƏNİSTANIN ATƏŞƏ TUTULMASI KİMİ ERMƏNİLƏRİN İNFORMASİYA TƏXRİBATININ MAHİYYƏTİ...

■ səh. 4 ■

Suriyada "Erməni ordusu" adı altında sayı qeyri-dəqiq silahlı birləşmələr yaratmaq planının arxa tərəfləri...

■ səh. 7 ■

KİVDF və Dövlət Statistika Komitəsi Azərbaycan dövlətçiliyi üçün müstəsna əhəmiyyətli siyahıyaalma mövzusunda jurnalist yazı müsabiqəsi elan etdi

■ səh. 3 ■

Prezident postunu hədəfləmiş Paşinyan "Sarkisyan konstitusiyasını" dəyişəcəyinin anonsunu verdi...

■ səh. 10 ■

Ermənistan hansı potensialla regionun enerji habı olmaq istəyir...

■ səh. 7 ■

5 ildə 7 min tələbə təhsil haqqı probleminə görə təhsildən imtina edibsə...

■ səh. 11 ■

Bina tikən MTK-lara yeni və gərəkli tələb - ərazinin azı 40 faizini yaşıllaşdırmalısınız...

■ səh. 13 ■

Azərbaycan atçılıq təsərrüfatı işçilərinin sosial problemləri...

■ səh. 14 ■

Bakı çayxanalarında 1 çaynik çay, üstəgəl bir neçə qaşıq mürəbbə - 10 manat...

■ səh. 13 ■



■ səh. 8 ■

## Ermənistanın «sayəsində» Yaxın Şərqdən terrorçu qruplaşmaların Qafqaza böyük axını başlanır...





## Azərbaycan rus silahlarını milli valyuta ilə ala biləcək

■ səh. 5 ■

ABŞ Demokrat hökuməti ilə dil tapa bilməyən Paşinyan Respublikaçı senatorlara qarmaq atdı - «spiker Mirzoyanın missiyası»...

■ səh. 10 ■

Azərbaycan torpaqlarını qaytarmaq məcburiyyəti Paşinyanı və «Qarabağ klanı»nı daxili intriqa planlarına yönəldir...

■ səh. 9 ■

■ səh. 2 ■

Azərbaycan dünyanın ən təhlükəsiz ölkələri sırasında yerini möhkəmləndirdi



■ səh. 4 ■

Köçəryanı həbsdən azad etmiş hakimin evini "şmon" etdilər, bənzər hadisə Azərbaycanda baş versəydi...



■ səh. 12 ■

Bu ilin tək altı ayında əhali gəlirləri 6 faizdən çox artıb, bu gedişlə...



■ səh. 15 ■

Azərbaycanda ailə, əmək mübahisələrində Mediasiya xidməti öz praktik nəticələrini göstərməyə başladı



■ səh. 11 ■

Müxtəlif ixtisaslar üzrə keçid bu il də 50-70 bal aşağı salınacaq...



## Ermənilər Qazaxda sərhədçimizi yaraladı

**Dövlət Sərhəd Xidməti (DSX) Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin pozulması barədə məlumat yayıb. DSX-dən baki-xeber.com-a verilən məlumata görə, 18 iyul 2019-cu il tarixdə saat 00:20 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən Ermənistanın Noyemberyan rayonunun Zorakan kəndi istiqamətindən iri çaplı silahlardan atəş açılmaqla atəşkəs rejimi pozulub, Qazax rayonunun II Şıxlı kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsinin mövqeləri atəşə tutulub. Cavab atəşi ilə düşmən susdurulub.**



Hadisə zamanı Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin sərhəd döyüş məntəqəsində döyüş növbəsində xidmət aparan əsgər Ceyhun Bayramov yaralanıb. Sərhədçi əsgərə dərhal təxirəsalınmaz tibbi yardım göstərilib və hazırda həyatı üçün təhlükə yoxdur.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev hadisə yerində olub, sərhəd döyüş məntəqəsinin şəxsi heyəti ilə görüşüb, xidməti-döyüş fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verib.

## Milli Mətbuat Günü münasibətilə "Kontakt Home" "Bakı-Xəbər"in adına 250 ədəd ağac əkib

Bakı Xəbər | Kontakt Home | KONTAKT

**"Kontakt Home" Milli Mətbuat Günü münasibətilə "Bakı-Xəbər" qəzetinə təbrik məktubu ünvanlayıb. Şirkət "Avtovağzal" metrostansiyası yaxınlığına qəzetimizin adına 250 ədəd ağac əkib.**

"Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin nəşri ilə simvolizə olunan Mətbuat Günü münasibətilə sizi təbrik edirik. Azərbaycan mətbuatının inkişafına verdiyiniz töhfələr üçün sizə "Kontakt Home" adından təşəkkür edirik. "Əkinçi"nin davamçısı olaraq sizin adınıza "Avtovağzal" metrostansiyası yaxınlığında 250 ədəd ağac əkmişik" - deyə şirkətdən qəzetimizə göndərilən təbrik mətnində bildirilir.

"Bakı-Xəbər"i diqqətdə saxladığı üçün "Kontakt Home"a öz təşəkkürümüzü bildiririk.

*Xəbər xidməti*

## Səfirlik İranla Ermənistan arasında hərbi əməkdaşlığa dair yayılmış xəbərlərin əsassız olduğunu deyir



**Son günlər Azərbaycan Respublikasının bəzi xəbər portallarında İranla Ermənistan arasında hərbi-texniki əməkdaşlığa dair yayılmış xəbərlər əsassızdır.**

Bu barədə "Trend"ə İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyindən məlumat verilib.

Səfirlik iki dost və qonşu ölkə arasında inkişafda olan əməkdaşlığın zəruriliyi və qorunmasına təkid edərək bildirir ki, İran İslam Respublikası hər zaman Dağlıq Qarabağ münaqişəsinin dinc yolla və Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır. Eyni halda regional sülh və sabitliyə xələl yetirə biləcək hər hansı bir addımı pisləyir.

# Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının yeni seçilmiş prezidentlərini təbrik etdi

**Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının yeni seçilmiş prezidentlərini təbrik edib.**



Azərbaycan Prezidenti bu münasibətlə Avropa İttifaqı Şurasının yeni seçilmiş Prezidenti Şarl Mişelə təbrik məktubu göndərib. Məktubda deyilir: "Ümidvaram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da genişlənməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı və dərinləşməsi istiqamətində birgə səylər göstərəcəyik".

Dövlətimizin başçısı Şarl Mişelə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətində uğurlar diləyib.

Avropa Komissiyasının yeni seçilmiş Prezidenti Ursula fon der Lyayenə təbrik məktubunda Prezident İlham Əliyev inandığını bildirib ki, Azərbaycanla Avropa İttifaqı arasındakı əməkdaşlıq qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcək.

Azərbaycan Prezidenti Avropa Komissiyasının yeni seçilmiş Prezidentinə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul işində uğurlar diləyib.

**Dünya ölkələri arasında təhlükəsiz ölkələrin və şəhərlərin reytinqi açıqlanıb. "Numbeo" servisi 2019-cu ilin ilk yarısı üzrə dünyanın ən təhlükəsiz ölkələrinin və şəhərlərinin reytinqini dərc edib. Xidmətin ekspertləri dünyanın 123 ölkəsində və 328 şəhərindəki cinayətkarlıq səviyyəsini təhlil ediblər.**

# Azərbaycan dünyanın ən təhlükəsiz ölkələri sırasında yerini möhkəmləndirdi

***Şəmsəddin Əliyev:*** *"Azərbaycan təhlükəsiz ölkə olduğu üçün beynəlxalq şirkətlər ölkəmizə sərmayə yatırırlar"*

Azərbaycan bu reytinqdə 34-cü yeri tutub (cinayətkarlıq indeksi - 32,68, təhlükəsizlik indeksi - 67,32).

Qeyd edək ki, ən təhlükəli ölkələr sırasında Əfqanıstan, Papua Yeni Qvineya və Cənubi Afrika göstərilib.

Həmçinin, dünya şəhərləri üzrə ayrıca təhlükəsizlik reytinqi tərtib edilib. Bakı dünyanın ən təhlükəsiz şəhərləri arasında 86-cı yeri tutub. İlk üçlükdə Əbu-Dabi (BƏƏ), Doha (Qətər) və Kvebek (Kanada) yer alıb.

Dünyanın ən təhlükəli şəhərləri isə Karakas (Venesuela), Pitermaritsburq (Cənubi Afrika) və Port Morsbi (Papua Yeni Qvineya) hesab olunur.

Azərbaycanın təhlükəsiz ölkə olmasını ekspertlər də təsdiqləyirlər.

"Polisə Yardım" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 25 il öncə ilə müqayisədə Azərbaycanda təhlükəsizlik, cinayətkarlıqla mübarizə müsbətə doğru dəyişib. Bu illər ərzində ölkədə sabitlik hökm sürməyə başlayıb: "Xatırladım ki, təxminən 25 il öncə ölkədə xaotik mənzərə var idi. Qanunsuz silahlı birləşmələr mövcud idi. Hətta bəzi bölgələrdə kriminogen durum tamamilə nəzarətdən çıxmışdı. Kim necə istəyirdisə, o cür də davranırdı. Zamanla bu sahədə vəziyyət dəyişdi. Vətəndaşların təhlükəsizliyinin qorunması, ictimai asayişin qaydaya salınması ilə qaydalar dəyişdi. Məlumat üçün bildirim ki, 2016-cı ildə Avropa ölkələri üzrə cinayətlərin sayına görə Azərbaycanda 271 cinayət qeydə alınmışdı. Əhalisi ölkəmizdən çox olan ölkələrdə isə cinayət faktlarının sayı daha çox idi".



*"Azərbaycanda cinayətkarlıq səviyyəsinin aşağı olmasının səbəbi ölkə polisinin peşəkarlığı və onun prinsipial olmasıdır"*

Həmsöhbətimiz hesab edir ki, Azərbaycanda cinayətkarlıq səviyyəsinin aşağı olmasının səbəbi ölkə polisinin peşəkarlığı və onun prinsipial olmasıdır. Azərbaycan təhlükəsiz ölkə olduğu üçün beynəlxalq şirkətlər ölkəmizə sərmayə yatırırlar. Ölkədə sabitlik olmasa, nə iqtisadiyyat inkişaf edər, nə də ölkəmizin adı beynəlxalq aləmdə tanınar.

**Günel CƏLİLOVA**

# Jurnalistlər pulsuz müayinədən keçiriləcək



**22 iyul - Milli Mətbuat Günü münasibətilə bütün KİV nümayəndələri üçün ödənişsiz ilkin terapevtik müayinə keçiriləcək.**

"Trend"in məlumatına görə, müayinəni "Apifioterapiya" Mərkəzinin həkimi fitoterapevt Elnur Eldaroğlu aparacaq.

E.Eldaroğlu "Trend"ə bildirib ki, aksiya 24-26 iyul tarixlərində keçiriləcək.

Aksiyadan qara ciyər (hepatitlər, qara ciyərin piy distrofiyası), öd kisəsi (öd daşı, xolesistitlər) və mədəaltı vəzin kəskin və xroniki xəstəlikləri, qəbizlik və qıcqırma kimi mədə-bağırsağın iltihabi (qastritlər, mədə xorası, reflüks-ezofagit, kolitlər) xəstəlikləri, qurd xəstəlikləri, kəskin və xroniki bronxitlər, eləcə də allergik (astmatik) bronxitlər, revmatoloji xəstəliklər, xüsusilə artritlərdən əziyyət çəkənlər müraciət edə bilər.

# KİVDF və Dövlət Statistika Komitəsi Azərbaycan dövlətçiliyi üçün müstəsna əhəmiyyətli siyahıyaalma mövzusunda jurnalist yazı müsabiqəsi elan etdi

**İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin təmsilçiləri Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəhbərliyilə görüşüb, qurumun fəaliyyətilə yaxından tanış olublar.**



Tədbirdə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Fondun icraçı direktoru Vüqar Səfərli, eləcə də ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri iştirak edib.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov media nümayəndələrini salamlayaraq qarşıdan gələn Milli Mətbuat Günü münasibətilə təbrik edib, onlara peşə fəaliyyətlərində uğurlar arzulayıb. Fondun təşkilatçılığı ilə bununla ikinci dəfədir ki, aparıcı media rəhbərlərinin komitə rəhbərliyi ilə görüşdüyünü diqqətə çatdıran Tahir Budaqov belə tədbirlərin qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini xüsusi qeyd edib.

Komitə sədri, həmçinin vurğulayıb ki, görüşün təşkilində məqsəd əhalinin siyahıyaalınması prosesi ilə bağlı media nümayəndələrinə və ümumən ictimaiyyətə dolğun informasiya vermək, onları görülmüş və qarşıda görüləcək işlərlə bağlı geniş məlumatlandırmaqdır: "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli, 1040 nömrəli Fərmanına əsasən, cari ilin 1-10 oktyabr tarixlərində Azərbaycan Respublikasında əhalinin növbəti siyahıyaalınması keçiriləcək. Fərmanın icrasının təmini məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 2016-cı il 16 dekabr tarixli, 517 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə, eləcə də aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq tapşırıqlar verilib. 2019-cu ildə "Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının hazırlanıb keçirilməsi üzrə təqvim planı"na uyğun olaraq, əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsini və onun keçirilməsini, yekunlarının işlənməsini, nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsində Siyahıyaalma qrupu yaradılıb".

Tahir Budaqov bildirib ki, prosesin mütərəqqi dünya təcrübəsi əsasında, mükəmməl formada aparılması üçün ölkəmizdə akkreditə olunmuş beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin Əhali Fondunun, Uşaq Fondunun, İnkişaf Proqramının, Qaçqınlar üzrə Ali Komissarlığının, Beynəlxalq Əmək Təşkilatının, Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndələri ilə görüşlər keçirilib, əhalinin siyahıyaalınması ilə bağlı əməkdaşlıq istiqamətləri müəyyən edilib.

Komitə sədri qeyd edib ki, siyahıyaalma vərəqəsi ölkə üzrə ev təsərrüfatlarının və ailələrin sayına, yaşayış binaları və evlərinə, yaşayış üçün istifadə edilən digər tikililərə dair ətraflı məlumatların əldə olunmasına imkan verəcək: "Sorğu vərəqəsində isə siyahıya alınacaq hər bir şəxsin cinsi, yaşı, doğulduğu yer, vətəndaşlığı, milli (etnik) mənsubiyyəti, ana dili və sərbəst danışdığı dillər, ailə vəziyyəti, siyahıyaalma anında olduğu yerdə daimi və ya müvəqqəti yaşaması, təhsil səviyyəsi, gəlir mənbələri, məşğulluq vəziyyəti, əlilliyi, əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyanın səbəbləri və s. mühüm göstəricilər üzrə suallar öz əksini tapıb. Siyahıyaalma vərəqəsində 6 sual, sorğu vərəqəsində isə altsuallar da daxil olmaqla 46 sual nəzərdə tutulub. Məşğulluq sahəsində milli qanunvericiliyə və Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmiş beynəlxalq metodologiyalara əsaslanaraq sorğu vərəqəsinə işçi qüvvəsini, həmçinin potensial işçi qüvvəsini, əhalinin məşğulluğunu, o cümlədən özünüməşğulluğunu, işsizliyini, iqtisadi qeyri-fəallığını və öz şəxsi istehlakı üçün mal istehsalı ilə məşğul olanları müəyyən edən bir sıra suallar daxil edilib. Bu suallar əsasında iqtisadi və inzibati rayonlar üzrə peşə və vəzifələr, iqtisadi fəaliyyət növləri, cins və yaş bölgüsündə işçi qüvvəsinə dair əldə olunacaq məlumatlar ölkədə əmək ehtiyatlarının istifadəsinin əhatəli qiymətləndirilməsinə və əmək bazarında mövcud vəziyyəti daha geniş təhlil etməyə imkan verəcək".

Komitə sədri vurğulayıb ki, əvvəlki siyahıyaalmadan fərqli olaraq sorğu vərəqəsinə ilk dəfə olaraq daxil edilmiş əlilliyə dair suallar ölkədə sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinə, təhsilinə və məşğulluğuna, habelə siyahıyaalma çərçivəsində toplanan digər göstəricilərə dair məlumatların əldə edilməsinə imkan yaradacaq: "Əhalinin siyahıyaalınmasının məlumatlarının elektron məlumat sisteminə daxil edilməsi, işlənməsi və yekunların əldə edilməsi məqsədi ilə məsələ qoyuluşu, çıxış cədvəllərinin nümunələri, kodlaşdırma soraqçaları və siyahıyaalma ilə bağlı müvafiq proqram təminatı hazırlanıb".

Çıxışını davam etdirən Tahir Budaqov bildirib ki, əhalinin siyahıyaalınması ilə bağlı ictimaiyyətin əhalinin məlumatlandırılması məqsədilə təşviqat materialları (baner, plakat və videoçarxlar) hazırlanıb. Plakat və banerlərin yerləşdirilməsi üçün yerli icra hakimiyyətlərinə müraciət edilib və onların dislokasiyası müəyyən edilib: "Hazırlanmış videoçarxlar televiziya kanallarında və aparıcı elektron media vasitələrində, eyni zamanda Bakı Metropoliteninə və Dövlət Reklam Agentliyinə məxsus monitorlarda yayımlanır. Dövlət Statistika Komitəsi mütəxəssislərinin əhalinin siyahıyaalınmasına aid müxtəlif mövzularda məqalələri "Xalq qəzeti"ndə dərc edilib.

Komitə sədrinin sözlərinə görə, proses başa çatdıqdan sonra siyahıyaalma materialları Siyahıyaalma qrupuna təhvil veriləcək, sonrakı mərhələdə bu proses üçün işə qəbul ediləcək operatorlar vasitəsilə məlumatların elektron məlumat sisteminə daxil edilməsi, proqram təminatı vasitəsi ilə yoxlanılması prosesi başlanacaq və bu 2020-ci ili əhatə edəcək: "Siyahıyaalma məlumatlarının emalı, əldə edilmiş çıxış cədvəlləri əsasında məcmuələrin nəşrə hazırlanması 2021-ci ildə, siyahıyaalmanın yekunlarına dair məcmuələrin nəşr olunması və istifadəçilərə çatdırılması isə 2022-ci ilin birinci yarısında nəzərdə tutulub".

Sonra söz Fondun icraçı direktoru Vüqar Səfərliyə verilib. İcraçı direktor tədbir iştirakçılarını salamlayaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də dövlət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsi məqsədinə xidmət edən birgə tədbirlərin, o cümlədən fərdi jurnalist yazıları müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. Vüqar Səfərli bildirib ki, Dövlət Statistika Komitəsində təşkil olunmuş sayca ikinci görüş KİV-lərlə Komitə arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, ictimaiyyətin əhalinin siyahıyaalınması prosesi ilə bağlı görüləcək işlər barədə dolğun şəkildə məlumatlandırılması baxımından vacib əhəmiyyət kəsb edir.

Vüqar Səfərli həmçinin bildirib ki, əhalinin siyahıyaalınması hər bir ölkənin sosial-iqtisadi inkişaf hədəflərinin düzgün müəyyənləşdirilməsi və bir sıra problemlərin həlli baxımından vacib əhəmiyyət kəsb edən prosesdir. İcraçı direktor əhalinin siyahıyaalınması prosesinin mahiyyətinin ictimaiyyətə dolğun şəkildə çatdırılması və əhalinin maarifləndirilməsi baxımından KİV-lərin də üzərinə mühüm vəzifələrin düşdüyünü bildirərək jurnalistləri bu məsələyə həssaslıqla yanaşmağa çağırıb.

İcraçı direktor bildirib ki, prosesin ayrı-ayrı mərhələləri barədə ictimaiyyətin dolğun şəkildə məlumatlandırılması və peşəkar jurnalist əməyinin stimullaşdırılması məqsədilə Fondun və Dövlət Statistika Komitəsinin birgə təşkilatçılığı ilə iyulun 22-dən oktyabrın 22-dək "Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi" mövzusunda birgə fərdi jurnalist yazıları müsabiqəsinin keçirilməsi nəzərdə tutulur. Bunda məqsəd həm də əhalinin növbəti siyahıyaalınması ilə bağlı maarifləndirmə tədbirlərinə töhfə vermək, prosesin sosial-iqtisadi əhəmiyyəti barədə ictimaiyyəti məlumatlandırmaq və təşviqat işlərini stimullaşdırmaqdır.

Daha sonra görüş diskussiya formatında davam etdirilib, komitə sədri media rəhbərlərini maraqlandıran sualları ətraflı cavablandırıb.

Fondun icraçı direktoru Vüqar Səfərli görüşün və birgə müsabiqənin təşkilinə verdiyi dəstəyə görə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqova təşəkkürünü bildirib. Komitə sədri Tahir Budaqov öz növbəsində Fondun rəhbərliyinə və media nümayəndələrinə minnətdarlığını bildirərək belə görüşlərin mütəmadi olaraq keçirilməsinin vacibliyini qeyd edib.





**Ermənistan KİV-i ölkənin Müdafiə Nazirliyinə istinadən növbəti dezinformasiyanı tirajlayıb. Onlar iddia edirlər ki, guya Naxçıvanla sərhəddə olan Elpin kəndi bizim tərəfdən mütəmadi atəşə tutulur. Erməni qaynaqları deyirlər ki, guya kənd bir neçə gündür mütəmadi atəşə məruz qalır və hətta bunun nəticəsində bir evin çardağına ziyan dəyib.**

# Naxçıvandan Ermənistanın atəşə tutulması kimi ermənilərin informasiya təxribatının mahiyyəti...



***Daşdəmir Əliyev:** "Sanki demək istəyirlər ki, Naxçıvandan onlara atılan güllə dünya müharibəsinə səbəb ola bilər"*

Ən maraqlısı isə budur ki, erməni tərəfi təxribat xarakterli bu məlumatı yaymaqla yanaşı, onu regionda baş verən böyük proseslərlə əlaqələndirməyə çalışıb. Bunun Türkiyənin Rusiyadan aldığı S-400-lərlə bağlı yaranan gərginliyin fonunda baş verdiyini qeyd etməklə, bütün beynəlxalq təhlükəsizliyə təhdid olduğunu bildirirlər. Ermənilər bu xüsusda yazırlar ki, Naxçıvandakı fəallıqda Rusiya ilə Türkiyənin yaxınlaşmasının izini də görürlər və bunu status-kvonu dəyişmək cəhdinə hazırlıq kimi dəyərləndirirlər. Belə qlobal miqyaslı yalanları dövriyyəyə buraxmaqla Ermənistan hansı məqsədi güdür?

Hərbi ekspert Daşdəmir Əliyev qəzetimizə bildirdi ki, bununla Ermənistan diqqəti özünə cəlb etmək istəyir: "Özünü guya dünyada gedən vacib proseslərin önəmli aktoru kimi qələmə verməyə çalışır. Naxçıvanla bağlı onların daim məkrli niyyətləri olub. Azərbaycanın həmin qədim diyarına daim ərazi iddiaları irəli sürüblər və bu gün də həmin sərsəm fikirlərindən əl çəkmirlər. Hətta uzun illərdir Naxçıvanı blokadada saxlayırlar. Onlar Naxçıvanla bağlı tamamilə fərqli mənzərəni gözləyirdilər. Amma bu gün görürlər ki, Naxçıvan onlar üçün hətta təhlükə mənbəyinə çevrilib. Naxçıvanda formalaşan Ümumqoşun Ordusu elə böyük gücə malikdir ki, hətta düşmən ərazisindəki istənilən hədəfi susdura bilər. Eyni zamanda, orada tez-tez Türkiyə ilə birgə keçirilən hərbi təlimlər Ermənistanı ciddi narahat edir. Bu yaxınlarda çox uğurla keçirilən Günnüt əməliyyatı isə onların canına ciddi vəlvələ salıb. Ermənistan bu cür təxribat xəbərlərini yaymaqla həm də Rusiya ilə Türkiyənin münasibətlərinə xələl gətirmək istəyir. Demək istəyir ki, biz sizin vassalınız ola-ola, siz niyə Türkiyə ilə hərbi sahədə yaxınlıq edirsiniz, hətta onlara S-400 kimi raket də satırsınız? Yəni bir kəndə güllənin atıldığı üzərində qurduqları yalanı böyük miqyasa qədər öz xeyirlərinə uyğun şəkildə böyüdə biliblər. Sanki demək istəyirlər ki, Naxçıvandan onlara atılan güllə dünya müharibəsinə səbəb ola bilər.

*"Ermənistan bu cür təxribat xəbərlərini yaymaqla həm də Rusiya ilə Türkiyənin münasibətlərinə xələl gətirmək istəyir"*

Bilirsiniz ki, bizim əsgərlər daim ermənilərə cavab verib. Heç vaxt biz ilk gülləni atmamışıq. Onların düşündükləri bu təxribat da keçərli deyil. Naxçıvandakı ordumuz çox qüdrətlidir. Bundan Ermənistanın keçirdiyi narahatlığı isə təbii qəbul etməliyik".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan kütləvi informasiya vasitələrinin verdiyi məlumatlara görə, bir müddət əvvəl Ermənistanın sabiq prezidenti Robert Köçəryanı azadlığa buraxan hakim David Qriqoryanın kabinetində, evində bu ölkənin hüquq-mühafizə orqanları tərəfindən axtarış aparılıb. Hakim ona ünvanlanan "bu axtarış Robert Köçəryanı azadlığa buraxmağınızla bağlı ola bilərmi" sualına "düşünürəm ki, bu hamıya aydındır" kimi maraqlı cavab verib.**

# Köçəryanı həbsdən azad etmiş hakimin evini "şmon" etdilər, bənzər hadisə Azərbaycanda baş versəydi...



***Azər Həsrət:** "AŞPA və digər qurumlar Ermənistanda baş verənləri susqunluqla qarşılayırlar"*

Ermənistanın rəsmi dairələri isə hakimin kabinetində aparılan axtarışların R.Köçəryanla deyil, başqa bir cinayət işilə əlaqəli olduğunu deyiblər. Məlumatlara görə isə rəsmi dairələrin bəhs etdiyi cinayət işində D.Qriqoryanın heç bir statusda adı keçmir.

Özünü "demokratiya carçısı" kimi təqdim edən Nikol Paşinyan rejiminin təmsilçilərinin Köçəryanı azad edən hakimin kabinetində axtarışlar aparmasına beynəlxalq qurumlar, o cümlədən də AŞPA heç bir mövqe sərgiləməyib. Halbuki, buna bənzər bir hadisə Azərbaycanda baş versəydi, sözügedən qurum dərhal tənqidi bəyanat yayardı.

Tanınmış ekspert Azər Həsrət bizimlə söhbətində bildirdi ki, AŞPA da daxil olmaqla, insan hüquq və azadlıqlarını qoruduqlarını iddia edən bütün beynəlxalq qurumlar ölkələrə və xalqlara ikili standartlardan yanaşır. R.Köçəryanı azadlığa buraxan hakimin mənzilində və kabinetində aparılan qanunsuz axtarışlara bu qurumların tənqidi reaksiya verməməsinin kökündə bu təşkilatların əsl mahiyyəti dayanır. "Birincisi, burada diqqətçəkən məqam ondan ibarətdir ki, Paşinyanın inqilab edərək küçədən hakimiyyətə gəlməsini bir sıra beynəlxalq təşkilatlar dəstəklədilər, bəziləri isə susqunluqla qarşıladılar. Faktiki olaraq, bununla da onun addımlarını dəstəklədiklərini göstərmiş oldular. Bunu onunla izah etdilər ki, Sarkisyan rejimi qanunsuz əməllərə imza atıb, bu ölkədə demokratiya, insan haqları boğulur və ona görə də Paşinyanın gəlməsi ilə qanunun aliliyi təmin edilir. Paşinyan hakimiyyətə gəldikdən sonra bir sıra addımlar atdı, Köçəryanla bağlı məlum araşdırmalar başlandı, sabiq prezident həbs edildi, sonra isə məhkəmə yolu ilə azadlığa buraxıldı. O, azadlığa buraxıldıqdan sonra isə onu azadlığa buraxan hakimlərlə hökumətin üz-üzə gəlməsi prosesi baş verdi. Onlar ya qanunun aliliyini rəhbər tutaraq, yaxud da hansısa səbəblərdən sabiq prezidenti azad ediblər. Məhkəmə hakimiyyətinin bu müstəqilliyi isə Paşinyanın xoşuna gəlməyib, bu səbəbdən də Köçəryanın azadlığa çıxması ilə bağlı qərar verən hakimə qarşı belə hallar baş verir, o, təqib olunur və kabinetində, mənzilində axtarışlar aparılır. Təbii ki, hər şey açıq-aşkar göz önündə olduğu bir vəziyyətdə beynəlxalq təşkilatlar, xüsusən də insan haqlarını qoruduğunu iddia edən AŞPA, ABŞ Dövlət Departamenti kimi qurumlar hakimin təqib olunmasına, kabinetində axtarışlar aparmasına reaksiya verməli və Paşinyan rejimini qınamalı idilər. Amma onlar bunu etmədilər. Bununla bir daha göstərirlər ki, bu qurumlar ölkələrə, ayrı-ayrı siyasətçilərə yanaşmada ayrıseçkiliyə yol verirlər. Onlar, iddia etdikləri kimi, insan haqlarının, yaxud da ədalətin və balanslı yanaşmanın tərəfdarı deyillər, konkret olaraq korporativ maraqlara, eləcə də müxtəlif ölkələrin maraqlarına xidmət edirlər. Həmin maraqlara uyğun şəkildə hərəkət edirlər. Ermənistanda baş verən hadisəyə AŞPA-nın və digər beynəlxalq qurumların münasibət bildirməməsi bu təşkilatların dövlətlərə, siyasətçilərə ikili yanaşmasının nəticəsidir. Əgər bizdə belə bir hadisə baş versəydi, həmin qurumlar bir-birinin ardınca bəyanatlar yayar, ölkəmizi tənqid edərdilər, ancaq AŞPA və digər qurumlar Ermənistanda baş verənləri susqunluqla qarşılayırlar" - deyə A.Həsrət bildirdi.

*"...bu təşkilatların dövlətlərə, siyasətçilərə ikili yanaşmasının nəticəsidir"*

***İradə SARIYEVA***

# Azərbaycan rus silahlarını milli valyuta ilə ala biləcək

**Azərbaycanın silah idxalında bu gün hələ də ən önəmli mövqe tutan ölkələr sırasında ilk yer Rusiyaya məxsusdur. Xüsusən də 2009-cu ildən etibarən Azərbaycan və Rusiyanın hərbi-texniki əməkdaşlığında dinamikanın yüksəlməsi müşahidə olunur.**

2005-2017-ci illər ərzində isə Rusiya və Azərbaycan arasında həyata keçirilən müqavilələr fonunda ölkəmiz şimal qonşumuzdan 5 milyard dollarlıq silah idxalını reallaşdırıb. İndilikdə də Azərbaycan Silahlı Qüvvələrini müasir texnikalarla yeniləməkdə davam edir, Rusiya isə beynəlxalq bazarda vacib silah istehsalçısı və hərbi məhsul tədarükçüsüdür. Bu fonda hələ qarşıdakı dövr ərzində Azərbaycanın Rusiyadan yeni silahlar alması gözlənir.

Artıq məlumdur ki, Rusiya Azərbaycana əsas etibarı ilə yeni aviasiya məhsulları satmaq arzusundadır. Elə bu günlərdə Rusiyanın Birləşmiş Aviatikinti Korporasiyası bildirib ki, Moskva Azərbaycana istənilən növ döyüş təyyarələrinin satışına hazırdır. Bir neçə gün əvvəl Rusiyada baş tutan "Army-2019" Forumunda Azərbaycana təklif olunan yenilənmiş "İl-76MD-90A" hərbi nəqliyyat, Su-34 və Su-35 döyüş təyyarələrinin də təqdimatı keçirilib. Bakı isə hələlik qeyd olunan istiqamətdə müvafiq seçimlərini edir. Silah ticarətində qarşıdakı dövr ərzində gözlənilən mühüm yeniliklərdən biri isə maliyyə hesablaşmalarının milli valyutalar üzərindən aparılmasıdır.

Rusiya Azərbaycanla hesablaşmaların milli valyutalarla aparılmasını əslində çoxdan istəyir. Artıq maliyyə əməliyyatlarının, cüzi də olsa, müəyyən hissəsi milli valyutalar üzərindən həyata keçirilir. Amma Moskva bu məbləğin artmasında maraqlı tərəf kimi çıxış edir. Rusiyanın "Sberbank" bankının rəhbəri German Qref də bunu mümkün sayır və qeyd edir ki, Rusiya ilə Azərbaycanın ticarət əməliyyatlarındakı hesablaşmaları daha böyük həcmdə milli valyutalara keçirmək mümkündür: "Məncə, bu çox düzgün addım olardı. Bunun üçün müvafiq infrastruktur yaradılmalıdır. Özü də söhbət təkcə ödəniş sistemindən getmir, onu tez bir zamanda dəyişdirmək olar, əsas məsələ ortaya çıxan valyuta risqlərinin sığortası, bu risqləri bazar vasitələri ilə sığorta etmək imkanı yaradan maliyyə alətləri bazarıdır. Amma istiqamət çox düzgün götürülüb və sözsüz ki, gələcəkdə bunlarda iştirak edəcəyik". Qeyd olunduğu kimi, hazırda iki ölkə arasındakı bəzi mal növlərinin dövriyyəsi ilə bağlı qarşılıqlı hesablaşmalar milli valyutalarda aparılır. Amma görünən budur ki, yaxın tezlikdə bu prosesə silah sövdələşmələri də aid ediləcək. Ən azı o baxımdan ki, artıq bu xüsusda müsbət təcrübə də yaranır. Belə ki, Rusiya özü silahlarını artıq milli valyutalar vasitəsilə satmağa getdikcə xüsusi diqqət yetirir. Məsələn, məlumdur ki,

Türkiyə S-400 hava hücumundan müdafiə sisteminin alışı üçün rublla avans ödəyib və ödənişlərin böyük hissəsini də yenə rublla həyata keçirəcək. "Bloomberg" nəşri yazır ki, artıq Rusiya və Hindistan silah satışına dair müqavilələr üzrə hesablaşmalarda milli valyutalardan istifadə edəcək. İki ölkənin mərkəzi bankı artıq buna dair razılaşmaya imza atıb. Mütəxəssislər hesab edirlər ki, Rusiya və Hindistan arasında hesablaşmalarda milli valyutalardan istifadə edilməsi Vaşinqtonun təzyiqindən qurtulmağa kömək edəcək. Bu, həmçinin, Rusiya rubluna olan tələbatı artıracaq, çünki sözügedən müqavilələrdə dəyəri on milyardlarla dollar olan hərbi texnikanın tədarükü nəzərdə tutulub.

Silah satışına dair müqavilə çərçivəsində rubldan istifadə etmək qərarı həm də Vaşinqtonun sanksiya siyasətinə cavab olaraq alınıb. Qeyd edək ki, ABŞ iki il əvvəl Rusiyanın müdafiə məhsulları və texnologiyalarının idxalı və ixracı ilə məşğul olan "Rosoboroneksport" şirkətini qara siyahıya salıb. Buna görə də şirkətin bank hesabına pul köçürmək istəyən maliyyə təşkilatları sanksiyaların qurbanı ola bilər. Sanksiyalar, xüsusilə "SWIFT" sistemi vasitəsilə banklararası dollar əməliyyatlarına qadağa qoyur. Bundan əvvəl analitiklər hesab edirdilər ki, Moskva və Dehli hesablaşmalarda avroya keçəcək. Lakin tərəflər rubla üstünlük veriblər. Bu isə Vaşinqtonun iki ölkənin ticarət münasibətlərinə müdaxiləsinin qarşısını alır. Çox güman ki, Moskva və Dehli "SWIFT"in əvəzinə Rusiya Bankının Maliyyə Mesajlaşma Sistemindən (SPFS) istifadə edəcək. Ekspertlər əmindir ki, hərbi-texniki əməkdaşlıq çərçivəsində milli valyutalardan istifadə rubla olan tələbatı artıracaq və onu qüvvətləndirəcək. Beynəlxalq Maliyyə Mərkəzinin eksperti Vladimir Rojankovski bəyan edib ki, baş verənlər fonunda rubl sürətlə möhkəmələnə bilər.

Xatırladaq ki, Rusiya artıq Çinlə də ticarətdə milli valyutalardan istfiadə edir. Artıq yaxın gələcəkdə Çinlə hesablaşmalarda rublun payı 50%-ə çata bilər. Hazırda isə bu rəqəm 10% civarındadır. Tərəflər artıq dollarla bağladıqları müqavilələr üzrə də hesablaşmalarda rubl və yuana keçməyi düşünür. Bundan başqa, "Qazprom" neft şirkətinin rəhbəri Aleksandr Dyukov neft ixracatında rublla sövdələşmələr həyata keçirməyə başladıqlarını bildirib. "Qazprom"un ixracat qolu olan "Qazprom Eksport" da bir müddət öncə rubl qarşılığında Avropaya təbii qaz satdığını bəyan edib. Hazırda MDB ölkələri də Rusiya ilə ticarəti məhz rubl vasitəsilə aparmaqda maraqlı tərəf kimi çıxış edirlər. Məhz bütün bunlar fonunda tezliklə Rusiya və Azərbaycan arasında ticarətin milli valyutalar üzərindən reallaşdırılması gözlənir. Bura Rusiyadan alınan silahlara edilən ödənişlər də daxildir.



***Tahir TAĞIYEV***

# AXCP fəalı mühacir biznesində - sensasion səs yazısı yayıldı

**Hazırda Fransada yaşayan AXCP-nin fəal üzvü Türkel Azərtürkün Almaniyada yaşayan azərbaycanlı ilə rüşvət müqabilində viza almaq üçün aralarındakı telefon danışığının səs yazısı yayılıb. "Trend" həmin səs yazısının stenoqramını və audio variantını təqdim edir:**





Afsane Aliyeva 1 hour ago
Müxalifət yenə şər atmağa davam edir.
REPLY

Afsane Aliyeva 1 hour ago
Siz heç vaxt hakimiyyətə gələ bilməyəcəksiniz!
REPLY

Rufat Ahmadzada 13 hours ago
Bunun arxasında moşenik Fikrət Hüseynov dayanır. Bildiz hamsı Fikrət? Mirqafar Seyidovun agenti olmuş Fikrət! Bütün saxta sənətləri o düzəldir Türkel üçün. Bunlar bir şəbəkədir. Camaata saxta sənətlər satıb xalqı bədbəxt edirlər!
REPLY

Volley 10 hours ago
Guya xalqın dərdinə yananlardı.Yığılıblar oralara xalqa gün ağlamağa.
REPLY

Afsane Aliyeva 1 hour ago
Muxalifet ozude bilmir ne yazir paylasir
REPLY

Türkel Azərtürk: Gələn ay mini verə biləriksə, 1700 "dalşe" də 500-200. İndidən deməyimiz daha yaxşı olardı. 15 gündən sonra, bir aydan sonra o sənədi alardıq. Biri var gələn ay verək, o biri ay alaq sənədi. O baxımdan deyirəm mən ki, sənədi 1 ay tez almış olacağıq. Yoxsa, yenə deyirəm, yazmışam bir də deyirəm. Sən öz haqq-hesabını məndən yaxşı bilirsən. Mənim xərcim bu qədərdir, bu qədər ata bilirəm. Başa düşürsən, o baxımdan deyirəm ki, sən fikrini de, mən bilim.

Mühacir: Mən ona nəyi izah elədim? Dedim ki, qaqa, gələcəksən, burada vəkil bahadır. Gələcəksən bura, 350-400 dollar düzəldirsən, gəlirsən bura. Aparırsan vəkilə 3000-2500-2000, nə qədərsə verirsən. Təzədən səhəri gün sənəd düzəldir. Dublin məsələsinə baxır. Hələ söz də vermir ki, yüzdə yüz sənin üçün bu dublin məsələsini qüvvədən salacağam. Söz vermir. İşə baxıram da, çalışacam qanunla həll edim. Amma olmayacaqsa da, olmayacaq. Mən yenə pulumu alacam. Fakt da bu pulu burada xərcləyəcəksənsə, elə get, qardaşım, 1200-1300, nə qədərdirsə, düzəməlli-başlı birbaşa alman vizası al. Həm 6-7 ay Dublin prosedurun getməsin, vaxtın uzanmasın, həm də rahat otur, intervyünü gözlə. Həm də ki, vəkilə pulu onsuz da verəcəksənsə, o pulu, olmasa heç vermə də. İzah elədim. İndi görüm məndən soruşdu ki, neçəyə düzəlir? Mən dedim ki, qaqa, bunun ən aşağısı bu işi üç nəfərə, yəni uşağı, ailəsi, özü gələcəklər 3500 dollara. Dedim indi ucuz tapa bilirsənsə, yaxşı, tap, tapa bilmirsənsə belə et. Mənə elə ciddi fərq eləmir. Prosto ki, mən sənə görə deyirəm ki, niyə gəlib burada əziyyət çəkəsən?.. Onu mən özüm də ucuz edib gələrdim. Sadəcə fikirləşdim ki, niyə əziyyət çəkim?! Getdim birbaşa viza aldım gəldim. İndi iz-ah elədim, yenə də məsləhət onun özünündür. Durub onu məcbur edə bilmirsən, deyərəm, fikirləşər ki, türk yəqin 3500 deyirsə, deməli oradan 2500 qazanır... Elə ona görə deyirəm ki, məsləhət özünündür, baxsın. Hər halda, gələndə də özü görəcək ki, vəziyyət necədir. Yenə də cəbhəçidir, özümüzünküdür, yaxın uşaqdır, qardaşdır ona görə... yenə məsləhət özünə qalır...

Bu biri işə gəlincə, yəni sənin işinə, indi mən onu söz verə bilmirəm ki, 3 aya olar-olmaz, necə olar... Vəziyyət bəlkə 2-3 aya dəyişər, bəlkə 2 aya o qardaşı işdən çıxararlar, o prokurorluqdakı qardaşı; bəlkə oradan sənəd gəlməsi mümkünsüz olar. Məsələn, indi mənə deyirlər ki, sən dediyin kimi, o sərhədi bağlayıblar. Ciddi yoxlama-filan, orabura. Hətta diplomatik korpusun öz nümayəndələrini belə ciddi yoxlayıb hər şeyi buraxmır. Bilmirəm nə hoqqadır, niyə belə eləyirlər, mühari̇bə eləyirlər, guya ki, bilmirəm, amma vəziyyət budur. İndi bilmirəm, yəni qaqam, o vaxta o sənəd məsələləri necə olar, gəlib çıxar-çıxmaz, o qardaş özü yaşayar, ölər, bəlkə də problemi olar heç gətirə bilməz. Yəni onları mən indidən durum sənə söz verim, arxayın eləyim, onu mən yalan danışmış olaram. Qaqaş, mən ona görə risq edə bilmərəm, sənə deyim, sonra heç cür eləyə bilməyim. Mən də belə qalam, sən də beləncik qalasan. Sonra deyəsən ki, ay Türkel, o vaxtı tapıb eləyərdin də birtəhər, bu vaxtı deyirsən ki, alınmır, mən sənə arxayın oldum. Ya başqa yerdən, başqa adamla düzəldərdim. Ona görə mən qalıram belə, sənə heç bir söz verə bilməyəcəm. Bu gün mümkündür hə, bu gün üçün deyə bilirəm. Amma sabahkı gün üçün deyə bilmirəm..."



Adil Əliyev 13 hours ago
Bunun şəriki Fikrət Hüseynovdur. Avropada oturub saxta möhrlər düzəltdirib Ukraymada özünə. Hamıya da 800-900 avrodan bu sənətləri satır. Bunlar bir cinayətkar şəbəkədirlər
2 REPLY

Volley 10 hours ago
Onsuz da xalqımız bilirdi.Amma yenə də olsun qoy baxıb görsünlər ki, kim-kimdir.
REPLY

Salim Haji 13 hours ago
Türkel hələ bir ara Əli Kərimlinin imzası və möhürü ilə də sənət satırdı. Çox dələduz adamdır
REPLY

Aslan Həmidli 13 hours ago
Çox təəsseflər olsun ki, belə dələduzlardan Azərbaycanda çoxdur...
REPLY

Volley 10 hours ago
Burda deyirlər ee "Özlərinə umac ova bilmirlər, başqalarına əriştə kəsirlər."

Göründüyü kimi, daim hakimiyyəti və Əli Kərimlidən başqa hər kəsi təhqid və təhqir edən, suçlayan AXCP-çilərdən daha birinin qanunsuz mühacirət alverində iştirakı ifşa olunur. Ümumiyyətlə, Avropada şəbəkələşmiş Əli Kərimli tərəfdarları bu cür fırıldaqların tam mərkəzində yerləşirlər və bu barədə ölkə mətbuatı dəfələrlə yazıb.

Lent yazısının yayımlandığı youtube platformasında yazılan şərhlər də diqqəti cəlb edir. Məsələn: Adil Əliyev adlı istifadəçi yazır ki, bunun şəriki Fikrət Hüseynovdur. A.Əliyev qeyd edib: "Avropada oturub, saxta möhürlər düzəltdirib Ukraynada özünə. Hamıya da 800-900 avrodan bu sənədləri satır. Bunlar bir cinayətkar şəbəkədirlər".

Salim Haji adlı istifadəçi bildirib: "Türkel hələ bir ara Əli Kərimlinin imzası və möhürü ilə də sənəd satırdı. Çox dələduz adamdır". Rüfət Əhmədzadə qeyd edib: "Bunun arxasında "moşennik" Fikrət Hüseynov dayanır. Bildiniz hansı Fikrət? Mirqafar Seyidovun agenti olmuş Fikrət! Bütün saxta sənədləri o düzəldir Türkel üçün. Bunlar bir şəbəkədir. Camaata saxta sənədlər satıb xalqı bədbəxt edirlər!" Rauf İsmayılov isə rəy yazaraq bildirib ki, bu cür hallar tez-tez baş verir:"Yeni bir şey deyil ki. AXCP də, Müsavat da xaricə mühacir göndərmək biznesi ilə məşğuldurlar. Partiya vəsiqəsi satırlar. Utanmırlar. Bunların liderləri Əli Kərimli, Arif Hacılı danışanda vətən dövlət deyirlər. Amma hamısı saxtadır. Alverçidirlər. Gör nə işlə məşğuldurlar. Yaxşı ki, sizin əlinizdə hakimiyyət yoxdur".

Səs yazısının altında bu kimi xeyli rəylər yazılıb. "Trend" sadəcə olaraq onlardan bir qismini təqdim edib.



Volley 10 hours ago
Onsuz da xalqımız bilirdi.Amma yenə də olsun qoy baxıb görsünlər ki, kim-kimdir.
REPLY

Salim Haji 13 hours ago
Türkel hələ bir ara Əli Kərimlinin imzası və möhürü ilə də sənət satırdı. Çox dələduz adamdır
REPLY

Aslan Həmidli 13 hours ago
Çox təəsseflər olsun ki, belə dələduzlardan Azərbaycanda çoxdur...
REPLY

Volley 10 hours ago
Burda deyirlər ee "Özlərinə umac ova bilmirlər, başqalarına əriştə kəsirlər."
REPLY

Imran Qasimov 7 minutes ago
Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində sərəncamın imzalanmasında məqsəd əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirməkdir.
REPLY

**Suriyanın şimalındakı Haseki bölgəsində qurulan və Ermənistanın birbaşa dəstəklədiyi, Nubar Ozanyan adını daşıyan erməni yaraqlı qruplaşması getdikcə böyüməkdədir. Türkiyə KİV-inin verdiyi məlumata görə, bu qruplaşmanın qərargahından yeni görüntülər sosial şəbəkələrdə yayılıb və məlum olur ki, "Ozanyan qrupu" qərargahında Ermənistan bayrağını asıb.**

*"Suriyadan Dağlıq Qarabağa çoxlu sayda belə terrorçu köçürülüb"*

# Suriyada "Erməni ordusu" adı altında sayı qeyri-dəqiq silahlı birləşmələr yaratmaq planının arxa tərəfləri...

***Elşən Həsənov:** "Burada söhbət ənənəvi erməni terror təşkilatlarının dirçəldilməsi və onlardan istifadədən gedir"*






"Ozanyan qrupu" əvvəlcə suriyalı ermənilərdən ibarət olmaqla 90 nəfərlik batalyon kimi formalaşıb. Lakin hazırda qrupun tərkibində 500-dən çox yaraqlı var və briqada şəklində formalaşdırılıb. Qruplaşmanın Türkiyə ilə sərhəd Kamışlı, Resulayn, Amude, Tel Abyad, Aynularab bölgələrində mövqe tutacağı bildirilir.

Həmin qruplaşma erməni terror təşkilatı ASALA-nın davamçısı hesab edilir. Suriya müharibəsi zamanı uzun illərdir bu bölgədə yerləşdirilmiş ermənilər qruplaşmaya daxil olub. Minlərlə suriyalı erməni isə Ermənistana köçüb, onlardan bir hissəsi Azərbaycanın işğal altındakı ərazilərində yerləşdirilib. Suriyada yaradılan erməni qruplaşmasına Ermənistandan hərbi və maddi dəstək verilir. Ermənistan öz hərbi təlimatçılarını qruplaşmaya təlim keçmək üçün bölgəyə göndərib.

İstisna deyil ki, Ermənistanın həmin qruplaşmaya dəstək verməsi gələcəkdə "Ozanyan qrupu"nun Qarabağda irimiqyaslı müharibə zamanı istifadə olunması planları ilə əlaqəlidir. Bəlli olduğu kimi, 90-cı illərin əvvəllərində Ermənistan işğalçı qüvvələrinin tərkibində Suriyadan və Livandan gəlmiş çoxsaylı muzdlu erməni də döyüşürdü.

Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, Yaxın Şərqdə ermənilərin daim dayaqları olub: "Heç kimə sirr deyil ki, Qarabağ müharibəsində onların həmin bölgədən olan ən tanınmış terrorçuları belə iştirak edib. Suriyada ermənilərdən ibarət belə bir batalyonun yaradılması maraqlıdır. Özü də onlar başlarının üzərinə Ermənistanın bayrağını asırlarsa, deməli, oradan terrorçuların hazırlanması üçün istifadə edirlər. Bilirik ki, Suriyada müxtəlif amallar uğrunda döyüşən qruplar var. Ermənilərin Suriyada heç bir marağı yoxdur ki, ayrıca batalyon formalaşdırsınlar. Deməli, burada söhbət ənənəvi erməni terror təşkilatlarının dirçəldilməsi və onlardan istifadədən gedir. Suriyadan Dağlıq Qarabağa çoxlu sayda belə terrorçu köçürülüb. Onların hətta işğal altında olan ərazilərdə məskunlaşması da həyata keçirilib. Sirr deyil ki, həmin qanunsuz miqrasiya həm oranın etnik tərkibinin öz xeyirlərinə dəyişdirilməsi, həm də terrorçuların məskən salması üçün həyata keçirilib. Çox təəssüflər olsun ki, bizim etirazlara baxmayaraq, həmin prosesə beynəlxalq güclər müdaxilə etmirlər.

Suriyada yaradılan bu batalyonla bağlı ciddi etiraz olunmalıdır. Onun ləğvi, fəaliyyətinin qarşısının alınması ilə bağlı dünya birliyinə müraciət olunmalıdır. Çox güman ki, onlardan Türkiyənin daxilindəki təxribatlarda da istifadə olunacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan rəsmisi Hayk Badalyan ölkə mətbuatına açıqlamasında bildirib ki, Şimal-Cənub elektrik ötürücü xəttinin tikintisilə Ermənistan guya regionda elektrik enerjisi habına çevrilir.**



# Ermənistan hansı potensialla regionun enerji habı olmaq istəyir...

***Əli Əlirzayev:** "Ermənistanın regionda enerji habı rolunda çıxış etmək potensialı yoxdur"*

O bunu belə əsaslandırmağa çalışıb: "Şimal-Cənub proqramının Mərkəz-Cənub hissəsi indi həyata keçirilmə mərhələsindədir. İndi İran İslam Respublikasıyla 400 kilovolt elektrik ötürücü xəttinin tikintisi davam etməkdədir. Mərkəz-Cənub ilə əlaqələndiriləcək Mərkəz-Şimal yolunun tikintisi da müzakirə olunur. Bu da Ermənistan-Gürcüstan 400 kilovolt elektrik ötürücü xəttinin tikintisi proqramıdır. Bunun nəticəsində ümid edirəm ki, regionda elektrik enerjisinin habı olarıq".

Bununla belə, Ermənistanın Baş nazirinin müavini Tiqran Avinyan Rusiya mətbuatına verdiyi açıqlamada bildirib ki, Ermənistan, Rusiya, Gürcüstan və İranın enerji şəbəkələrinin birləşdirilməsi 2-3 il ərzində tamamlana bilər.

Qeyd edək ki, hələ 2015-ci ilin dekabr ayında Ermənistan, Rusiya, Gürcüstan və İran qarşılıqlı elektrik axınlarının və enerji sistemlərinin təhlükəsizliyinin idarə olunması səviyyəsinin yaxşılaşdırılması üzrə əməkdaşlıq haqqında memorandum imzalayıblar.

Avinyanın sözlərinə görə, hazırda Ermənistan tərəfi Gürcüstan və İranla yüksək gərginlikli xətt çəkir. O deyib ki, Ermənistan, Gürcüstan, Rusiya və İran şəbəkələrinin fəaliyyətinin sinxronlaşdırılması vacibdir: "Şəbəkələrin birləşdirilməsinin məqsədi tək bir qlobal bazarın və qlobal enerji infrastrukturunun olmasıdır. Biz Rusiya ilə sinxron şəkildə işləmək və ya tezliklərin konvertasiya edilməsinə imkan verəcək bir sistem qurmaq istəyirik".

*"Bu barədə erməni rəsmilərinin səsləndirdiyi fikirlər reallıqla uzlaşmır"*

Regionda enerji layihələrinin həyata keçirildiyi əsas ölkə Azərbaycandır. Bununla bağlı geniş danışmağa lüzum yoxdur. Belə olan halda, Ermənistan hansı potensialla regionun enerji habı rolunda çıxış edə bilər?

Sözügedən məsələni dəyərləndirən iqtisadçı-alim Əli Əlirzayevin fikrincə, Ermənistan rəsmilərinin bununla bağlı ölkələri barədə səsləndirdiyi fikirlər xam xəyaldır: "Ermənistanın regionda enerji habı rolunda çıxış etmək potensialı yoxdur. Bu barədə erməni rəsmilərinin səsləndirdiyi fikirlər reallıqla uzlaşmır. Bunun üçün gərək ciddi əsaslar olsun. Neçə ildir Ermənistan bu yöndə çalışır, amma ortalıqda real nəticələr yoxdur. Bu sahədə regionda aparıcı ölkə Azərbaycan çıxış edir. Bir müddət əvvəl Bakı və Tehran Azərbaycan, İran və Türkiyə arasında elektrik enerjisi dəhlizinin yaradılması imkanını müzakirə ediblər. 2018-ci ildə Bakıda Azərbaycan, İran və Rusiya elektrik enerjisi sistemlərinin birləşdirilməsi məqsədilə üçtərəfli işçi qrup yaradılıb.

Ötən ilin oktyabrında işçi qrupun ilk iclası keçirilib. Bununla bağlı ölkələr arasında müzakirələr davam edir. Sözügedən ölkələr bu sahədə Azərbaycanla əməkdaşlığa daha çox önəm verir, nəinki Ermənistanla".

***Vidadi ORDAHALLI***

**Suriyada sıxışdırılan terror qruplaşmalarının başqa məkanlara üz tutacağına dair verilən proqnozlar özünü təsdiqləyir. Belə məlum olur ki, terrorçuların üz tutmaq niyyətində olduqları əsas məkanlardan biri də Qafqazdır. Onların buraya gəlişinə şərait yaradan əsas dövlət qismində isə işğalçı Ermənistan çıxış edir.**

# Ermənistanın "sayəsində" Yaxın Şərqdən terrorçu qruplaşmaların Qafqaza böyük axını başlanır...



Ümumiyyətlə, hadisələrin təhlili göstərir ki, Ermənistanın Suriya və digər ərazilərdəki terrorçularla getdikcə daha sıx işbirliyi yaranır. Bura hətta İŞİD terrorçu qruplaşması da daxildir. Xatırladaq ki, bundan əvvəl İŞİD-in MDB məkanına marağının artması artıq rəsmi səviyyələrdə də etiraf edilib. Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin rəhbəri Aleksandr Bortnikov bəyan edib ki, İŞİD ekstremist qruplaşmasının üzvləri Əfqanıstanın şimalına, Orta Asiyadakı keçmiş sovet respublikaları ilə sərhədə yığışır. Federal Təhlükəsizlik Xidmətinin direktoru hazırda qruplaşmaya qarşı mübarizə aparıldığını da diqqətə çatdırıb: "Azərbaycan, Tacikistan, Qırğızıstan və Özbəkistandan olan tərəfdaşlarla əməkdaşlıq nəticəsində İŞİD və digər beynəlxalq terror təşkilatlarının 8 yuvası aşkar və məhv edilib". Onun sözlərinə görə, aparılan mübarizəyə rəğmən isə, İŞİD-in MDB məkanına marağı artır və bura Qafqaz da daxildir. Aleksandr Bortnikov bildirib ki, İŞİD-in maraq göstərdiyi ölkələrdən biri də məhz Ermənistandır. Xatırladaq ki, bir müddət əvvəl bu xüsusda Rusiya Daxili İşlər Nazirliyinin Ekstremizmə Müqavimət Baş İdarəsinin rəisi Oleq İlyinıx da maraqlı açıqlamalar vermişdi: "Suriya və İraqdakı məğlubiyyətindən sonra İŞİD öz maraqlarını Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan və Ermənistan ərazilərinə yönləndirir".

İŞİD-lə yanaşı, Ermənistan Suriyada genişmiqyaslı fəaliyyətini davam etdirən PKK ilə də sıx işbirliyi içindədir. Hələ bu ilin aprelində məlum olmuşdu ki, Suriyada PKK terror təşkilatının tərkibində ermənilərdən ibarət yeni terror qrupu yaradılıb. Qrupun tərkibinə Ermənistandan Suriyaya gedən daşnak-ermənilər və Suriya ərazisində yaşayan bəzi erməni qruplar qoşulub. PKK-nın tərkibində qurulan bu erməni qruplaşma terror təşkilatının Suriya qolu olan YPG-yə tabedir. Bundan sonra məlum oldu ki, bu vaxta qədər PKK-ya qucaq açan Ermənistan indi onun tərkibini elə ermənilərin hesabına da genişləndirməyə çalışır. Bu isə təkcə Azərbaycana yox, Türkiyəyə, hətta Yaxın Şərqdə öz planları olan Rusiyaya da müəyyən təhdidlər yaradır. Məhz belə bir vaxtda yayılan digər məlumata əsasən, indiyə qədər PKK-ya silah və maddi dəstək verən Ermənistan hazırda ASALA terror təşkilatını yeni adla dirçəltməyə başlayıb. Türkiyə mediası yazır ki, Suriyanın şimalındakı Haseki bölgəsində qurulan və Ermənistanın birbaşa dəstəklədiyi, Nubar Ozanyan adını daşıyan erməni yaraqlı qruplaşması getdikcə böyüməkdədir. Bu qruplaşmanın qərargahından yeni görüntülər sosial şəbəkələrdə yayılıb və məlum olur ki, "Ozanyan qrupu" qərargahında Ermənistan bayrağını asıb.

"Ozanyan qrupu" əvvəlcə suriyalı ermənilərdən ibarət olmaqla 90 nəfərlik batalyon kimi formalaşıb. Lakin hazırda qrupun tərkibində 500-dən çox yaraqlı var və briqada şəklində formalaşdırılıb. Qruplaşmanın Türkiyə ilə sərhəd Kamışlı, Resulayn, Amude, Tel Abyad, Aynularab bölgələrində mövqe tutacağı bildirilir. Həmin qruplaşma erməni terror təşkilatı ASALA-nın davamçısı hesab edilir. Suriya müharibəsi zamanı uzun illərdir bu bölgədə yerləşdiirlmiş ermənilər qruplaşmaya daxil olub. Minlərlə suriyalı erməni isə Ermənistana köçüb, onlardan bir hissəsi Azərbaycanın işğal altındakı ərazilərində yerləşdirilib. Suriyada yaradılan erməni qruplaşmasına Ermənistandan hərbi və maddi dəstək verilir. Ermənistan öz hərbi təlimatçılarını qruplaşmaya təlim keçmək üçün bölgəyə göndərib. Türkiyə qaynaqları qeyd edir ki, Ermənistan indi də PKK-ya birbaşa dəstək verir, öz ərazisində və işğal altındakı Qarabağda PKK düşərgələri yaradıb. Amma görünən budur ki, artıq tərəflər arasında işbirliyi daha sürətlə genişlənir. Ümumiyyətlə, PKK-çıların Ermənistana keçməsi, yaxud ora toplaşması təsadüfi deyil. Çünki həm PKK-çılar, həm də Ermənistan Türkiyə və Azərbaycanın düşmənidir. İndiki durumda PKK öz çirkin niyyətlərini həyata keçirmək üçün isə ən əlverişli ərazi kimi Ermənistanı görür. Bundan əlavə, Ermənistan PKK-nı terrorçu qruplaşma olaraq tanımır. Yeri gəlmişkən, erməni lobbisi və Ermənistanın kürd terrorçularına dəstək verməsi və onları müdafiə etdiyi barədə mövqeyi də tərəflər arasında sıx işbirlyinin göstəricisi sayılır. Ümumiyyətlə isə, PKK ilə ermənilərin terror təşkilatı ASALA arasında əlaqələr ötən əsrin 80-ci illərindən formalaşmağa başlayıb. ASALA onlarla türk diplomatına qarşı sui-qəsdlər həyata keçirən vaxtlarda PKK Türkiyənin daxilində türkləri qanına qəltan edirdi. Sonradan Ermənistan müstəqillik qazandıqdan sonra bu münasibətlər daha da yaxınlaşdı. Həmin dövrdə PKK-nın Ermənistana hərtərəfli yardım etməsi barədə çoxsaylı məlumatlar var. Ermənilərin və erməni diasporunun yüz ildir beynəlxalq ictimaiyyətə sırımağa çalışdığı "qondarma" soyqırım" iddialarına PKK və ona yaxın dairələr tam mənada dəstək verib. İndi isə tərəflər arasında artan işbirliyi fonunda Ermənistan PKK-nı yeni üzvlərlə də təmin edir.

Aydındır ki, perspektivdə Ermənistan terrorçu qruplaşmaları Qarabağa köçürərək onlardan Azərbaycana qarşı istifadə etməyi də düşünür. Amma məsələnin təhlükəli tərəfi budur ki, Ermənistan sayəsində Yaxın Şərqdən terrorçu qruplaşmaların Qafqaza böyük axını başlanır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan torpaqlarını qaytarmaq məcburiyyəti Paşinyanı və "Qarabağ klanı"nı daxili intriqa planlarına yönəldir...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan daxilində ziddiyyətlərin daha sürətlə dərinləşməsi, "Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında bu istiqamətdə də münasibətlərin kəskin qarşıdurma həddinə çatması müşahidə olunur. "Qarabağ klanı" iddia edir ki, Paşinyan onları sıradan çıxararaq Azərbaycanla hansısa razılıqlar əldə etməyə çalışır. Paşinyan da tamam əks mövqedən çıxış edir.**

Erməni mediası öz növbəsində yazır ki, kəskinlən qarşıdurma Ermənistanı daha da zəiflədir və belə vəziyyətdə İrəvanın Qarabağ məsələsində Bakıya məğlub olması qaçılmaz olacaq. Digər tərəfdən, yayılan məlumatlardan belə bəlli olur ki, zəbt edilmiş ərazilərdə "prezident seçkiləri"nə qədər Paşinyan "Qarabağ klanı"nı tam sıradan çıxarmağı düşünür. Ermənistanda sabiq prezident Robert Köçəryanı həbsxanadan azadlığa buraxan birinci instansiya məhkəməsinin hakimi David Qriqoryanın hakimiyyətin təzyiqinə məruz qalması isə bunun daha bir təsdiqi sayılır. Bildirilir ki, hazırda Qriqoryanın məhkəmə binasındakı kabineti möhürlənib. Bundan başqa, Ermənistanın hüquq-mühafizə orqanlarının əməkdaşları onun evində axtarış aparıblar. Ölkənin Xüsusi İstintaq Xidmətinin mətbuat katibi Marina Ohancanyan bu məlumatı təsdiq edib. O əlavə edib ki, axtarış bu xidmətin apardığı istintaq çərçivəsində həyata keçirilib və təfsilatı barədə məlumat verilməyəcək. Bundan əvvəl də "politika.am" portalı yazıb ki, kabinet möhürləndikdən sonra hakim və onun vəkilinə oraya daxil olmaq qadağan edilib. Xüsusi İstintaq Xidmətinin müstəntiqi isə bildirib ki, kabinet cinayət yeridir. Məzuniyyətdən qayıdan Qriqoryan nə baş verdiyini anlamayıb.

Xatırladaq ki, İrəvan birinci instansiya məhkəməsi mayın 20-də oyuncaq "Dağlıq Qarabağ" respublikasının indiki başçısı Bako Saakyan və keçmiş rəhbəri Arkadi Qukasyanın zəmanəti ilə sabiq prezident Köçəryanın azadlığa buraxılması, cinayət işinin icraatının dayandırılması və onun əlavə istintaqı barədə qərar verib. İyunun 25-də isə Ermənistan Apellyasiya Məhkəməsi bu qərarı ləğv edib və sabiq prezident yenidən həbsxanaya göndərilib. Erməni mediası yazır ki, Robert Köçəryanı həbsxanadan azadlığa buraxan birinci instansiya məhkəməsinin hakimi David Qriqoryanın belə təzyiqlərə məruz qalması səbəbsiz deyil. Bildirilir ki, Paşinyan bununla, əslində digər hakimlərə də dərs vermək istəyir ki, "Qarabağ klanı"nın təmsilçilərindən kimsə məhkəməyə cəlb edildikdən sonra azadlığa çıxmasın. Yaxın tezlikdə isə "Qarabağ klanı"nın digər təmsilçilərinin də həbsə atılması gözlənir və onların bir çoxunun məhkəmə istintaqı da yekunlaşmaq üzrədir. Bundan sonra isə Paşinyan zəbt edilmiş Azərbaycan ərazilərində ona qarşı olan qüvvələri sıradan çıxarmaq istəyir. Bunun üçün ən yaxşı məqam Dağlıq Qarabağ ərazisində yaradılan separatçı rejimin keçirmək istədiyi 2020-ci ildəki "prezident seçkiləri" hesab olunur. "Prezident seçkiləri" ilə bağlı hazırda Azərbaycan torpaqlarında yaşayan ermənilər arasında ciddi qarşıdurma yaşanır.

Separatçı rejimin keçmiş "xarici işlər naziri" Arman Melikyan bu fonda Qarabağda toqquşmaların olacağını hesab edir. Onun fikrincə, "prezidentliyə güzəştli namizəd" çıxmayacaqsa, Qarabağda vətəndaş toqquşması real olacaq: " Bako Saakyan, Samvel Babayan, Araik Artunyan, Vitali Balasanyan və digərləri ortaq "namizəd" və ya "namizədlər" tapıb razılaşacaqlarsa, problem olmayacaq. Yox, bunun əksi olacaqsa, daxili siyasi qarşıdurma, hətta "vətəndaş müharibəsi" qaçılmaz olacaq. Qarşıdurma olacaqsa, bu, Azərbaycanın əlini gücləndirəcək və daha ciddi risqlər yaranacaq. Onda Azərbaycan asanlıqla Qarabağa nəzarət imkanı qazana biləcək".

Ermənistanın "İrates" nəşri isə qeyd edir ki, qondarma qurumun "rəhbərliyi" mümkün qədər sakit şəkildə hakimiyyət dəyişikliyini həyata keçirməyə çalışır.

Nəşrə görə, müharibə vəziyyətində bu, məntiqi və zəruridir: "Lakin bununla belə, bəzi qüvvələr bütün bunları qızışdırmağa və intriqalar yaratmağa çalışır. Qarabağdakı mənbələrimizin verdiyi məlumata görə, hazırkı vəziyyətdə "prezidentliyə namizədlər" içərisində təhlükəsizlik şurasının rəhbəri Vitali Balasanyan favoritdir və qarabağlılar ona xüsusi rəğbət bəsləyir. Qarabağdakı rejimin bəzi nümayəndələri gecəgündüz "inqilabçıların" siyasətini tərifləyən Ara Harutyunyanı üstün tutursa, o zaman bu məsələdə digərlərinin ciddi ziddiyyətləri var. Bizdə olan məlumata görə, Köçəryan öz şəxsi komandası ilə, Sarkisyan isə Respublika Partiyası ilə Balasanyana öz dəstəyini ifadə edib. Paşinyanın Balasanyana sərt münasibət göstərməsinin səbəbi də məhz budur". Bu fonda "Joğovurd" nəşri yazır ki, "Qarabağ klanı" ilə Paşinyanın daha qanlı toqquşması gələn il baş verəcək. Çünki Paşinyan və "Qarabağ klanı" separatçı rejimin başına öz adamlarının gəlməsini istəyir. Qeyd olunur ki, Paşinyanın əsas namizədi qondarma qurumun keçmiş "müdafiə naziri" Movses Akopyandır. "Jamanak" yazır ki, belə vəziyyətdə Paşinyan Qarabağda vəziyyəti qarışdırmağa çalışır. O, Dağlıq Qarabağda Silahlı Qüvvələrin keçmiş komandanı Samvel Babayan vasitəsilə burada aksiyalar təşkil edib, "Qarabağ klanı"nın mövqeyini sarsıtmağa cəhd göstərir.

Ermənistan parlamentinin sabiq deputatı Ruben Akobyan isə qeyd edir ki, belə vəziyyətdə Qarabağda qarşıdakı günlərdə ciddi hadisələr gözlənilir: "Təhlükəli olan həm də Paşinyan hakimiyyəti tərəfindən ləkələnmiş, qüsurlu hesab edilən generalitetin üzvlərinin müxtəlif cəbhələrdə peyda olmasıdır. Bu isə təhlükəli məqamlarla doludur. Generalitetin düşərgələrə bölünməsi prosesinin qarşısı alınmasa, təhlükəli hadisələr baş verə bilər. Hakimiyyət razılıq mühiti yaradılmasına cəhd etmir. Əksinə, qarşıdurmanın daha da artmasına xidmət edir".

Bu arada məlum olub ki, Paşinyan separatçı rejim üzərində nəzarəti gücləndirmək üçün artıq hərəkətə keçib. Belə ki, Ermənistanın Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan onun tapşırığı ilə Azərbaycanın işğal edilmiş bölgəsinə gəlib. Qriqoryan Qarabağda separatçıların lideri Bako Saakyanla görüşüb. Görüş zamanı əsasən təhlükəsizlik sferasındakı məsələlərin müzakirə edildiyi bildirilir. Qriqoryan-Saakyan görüşündə "DQR"in "təhlükəsizlik şurası"nın katibi Arşavir Qaramyan da iştirak edib. Erməni mediası yazır ki, əslində, Qriqoryan Saakyana Paşinyanın tələblərini çatdırıb. Bu tələblər isə "prezident seçkiləri"ndə İrəvanın, yəni Paşinyanın namizədinin separatçı rejimin başına gəlməsidir. Saakyanın buna qarşı çıxması isə "Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında gərginliyi daha da artırıb. Hesab edilir ki, yaxın günlərdə Paşinyan Qarabağda vəziyyəti qarışdırmaq və burada da inqilab təşkil etmək üçün aktiv hərəkətə keçəcək. Bu fonda Ermənistanın "Qraparak" qəzeti yazır ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı rejimdə ciddi kadr dəyişiklikləri olacaq və bütün təşəbbüslər də İrəvandan gəlir. Erməni politoloq Artur Osipyan deyib ki, Qarabağda yaşayan ermənilər bu məsələdə Paşinyana dəstək verə bilər: "Çünki insanlar yaranmış vəziyyətdən bezib. Qarabağa Bako Saakyan və bir neçə general nəzarət edib. Onlar 20 ildir insanları qarət edir, amansızlıq göstərirlər. Bu səbəbdən Qarabağ erməniləri dəyişiklik istəyir".

Hazırda Paşinyan üçün əsas məsələ bu durumdan istfiadə etmək, Bako Saakyanın uzaqlaşdırılmasından sonra onun yerinə öz adamını gətirməkdir. Beləliklə, Paşinyan həm Ermənistan daxilində, həm də işğal olunmuş Azərbaycan ərazilərində "Qarabağ klanı"nı tam sıradan çıxarır. Bu şəraitdə münaqişənin dinc müstəvidə həlli və zəbt edilmiş ərazilərin tədricən azad olmasına müqavimət göstərən ciddi qüvvələr də olmayacaq. Paşinyan onu da nəzərə alır ki, erməni əhalisi öz sosial durumunun yaxşılaşdırılması üçün Qarabağ münaqişəsinin həllini çoxdan tələb edir. Bu mənada, onun "Qarabağ klanı"nı tam sıradan çıxardıqdan sonra Azərbaycanla razılığa gəlməsi mümkün sayılır. Belə vəziyyətdə Paşinyan Ermənistanın da inkişafını təmin edə bilər ki, bununla o, ölkədə daha böyük dəstək qazanmaq imkanı da əldə edəcək. Bütün hallarda, hər şey zəbt edilmiş ərazilərin azad olunmasından keçir. Yaranmış vəziyyətdə Paşinyanın son Qarabağ açıqlamaları da xüsusi diqqət cəlb edir. Paşinyan qeyd edib ki, hazırda danışıqlarda konkret nəticələrin əldə olunması üzərində iş gedir: "Beynəlxalq ictimaiyyətin nümayəndələri ilə görüşlərdə mən vəziyyəti təsvir edib, tərəqqinin olmamasını izah etmək istəyəndə deyirəm ki, bir səbəb var. Mən Ermənistanın baş naziri seçiləndə bildirdim ki, Qarabağ məsələsinin həlli üçün elə variant lazımdır ki, Ermənistan və Azərbaycan xalqları üçün qənaətbəxş olsun. Bu, müəyyən mənada misli görünməmiş bəyanatdır. Ermənistanın heç bir rəhbəri deməmişdi ki, həll Azərbaycan xalqı üçün də qənaedici olmalıdır.

Kimsə Azərbaycan üçün qənaətbəxş həllin Ermənistan üçün yolverilməz olacağını düşünə bilər. Kim belə düşünürsə, o, ümumilikdə erməni xalqını tanımır". Beləliklə, Paşinyan Qarabağ münaqişəsinin həllində Azərbaycan xalqını qane edə biləcək çözüm variantının mövcudluğunu yaxşı başa düşdüyünü açıq etiraf edir. Bu xüsusda o, müvafiq addımlar ata bilmək üçün "Qarabağ klanı"nı tam sıradan çıxarmalı olduğunu da aydın görür. Bu mənada, "Qarabağ klanı"nın sıradan çıxmasından sonra münaqişənin həlli istiqamətində müəyyən dəyişikliklərin olması istisnalıq təşkil etmir. Əks təqdirdə Azərbaycanın münaqişənin həllini güc müstəvisində reallaşdırması da qaçılmaz olacaq. Halbuki, mümkün yeni savaş erməni tərəfi üçün ən böyük qorxu sayılır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# ABŞ Demokrat hökuməti ilə dil tapa bilməyən Paşinyan Respublikaçı senatorlara qarmaq atdı - "spiker Mirzoyanın missiyası"...

**Ermənistan parlamentinin sədri Ararat Mirzoyanın rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 14-dən ABŞ-da səfərdədir. O, iyulun 16-da ABŞ Senatında çoxluq olan respublikaçıların rəhbəri Mitç Makkonellə görüşüb. Tərəflərin Ermənistana mümkün maliyyə yardımının həcminin artırılması, həmçinin, regional təhlükəsizlik məsələləri ətrafında geniş müzakirə apardıqlarına dair məlumat verilib.**



Ermənistanın rəsmi dairələrinin görüşlə bağlı yaydığı məlumatda qeyd edilir ki, tərəflər Ermənistan və regionda demokratiyanın inkişaf etdirilməsi ətrafında da fikir mübadiləsi aparıblar. Ermənistanın bütün rəsmi təmaslarda dilənçilik etməsi məlumdur. Budəfəki görüşdə də belə fikirlərin irəli sürülməsi təəccüblü deyil. Ancaq maraqlı olan budur ki, daim ABŞ-ın demokrat hakimiyyətləri ilə yaxın olan Ermənistan hakimiyyəti və ona bağlı olan diasporu bu dəfə respublikaçı çoxluğa qarmaq atır. Dilənçiliklə yanaşı, guya dünyanın qlobal problemlərini də onlarla müzakirə etməyə çalışır. Erməni nümayəndə heyətinin bu riyakarlığı nə ilə izah edilə bilər?

Politoloq Nəzakət

***Nəzakət Məmmədova:** "Ermənistan öz işğalçı siyasətindən əl çəkib regionda həyata keçirilən beynəlxalq layihələrə qoşulmaqla vəsait əldə etmək əvəzinə..."*

Məmmədova qəzetimizə bildirdi ki, son günlər Ermənistanın diplomatiya cəbhəsində bir vurnuxma hiss olunur: "Ermənistan XİN-də Paşinyanın öz seçdiyi siyahı əsasında Ermənistanda akkreditasiya olunmuş diplomatlarla bağlı qapılar arxasında görüş keçirilməsi gözlənir. Məlumata görə, görüş o qədər məxfidir ki, hətta XİN-in aidiyyəti departamentləri belə bu barədə məlumatlandırılmayıb. Eləcə də Ermənistan parlamentinin sədri Mirzoyanın ABŞ-da Senatdakı respublikaçı çoxluğunun rəhbəri Makkonellə görüşü və keçirdiyi digər görüşlər diqqəti cəlb edir. Görüşdə bir sıra məsələlər müzakirə olunub ki, məsələn, onlardan biri işğalçı ölkənin ABŞ-dan maliyyə yardımı istəməsidir. Hələ ötən il növbədənkənar seçkilər ərəfəsində ABŞ Ermənistana yardımları artırmaq qərarına gəlmişdi. Halbuki, "Minilliyin çağırışı" proqramı əsasında 2006-2008-ci illərdə Ermənistana 177 milyon yardım ayıran Dövlət Departamenti 2008-ci ilin martında qərbyönümlü müxalifətə, nümayişçilərə təzyiqdən sonra bu yardımı dayandırmışdı. Lakin Paşinyanın iqtidara gəlməsindən sonra ABŞ yardımları yenidən bərpa etmək qərarına gəldi. Bu da onu göstərir ki, Ermənistan öz işğalçı siyasətindən əl çəkib regionda həyata keçirilən beynəlxalq layihələrə qoşulmaqla vəsait əldə etmək əvəzinə, öz işğal planlarını davam etdirmək və xarici yardımlar hesabına yaşamaq fikrindədir. Bunun üçün isə əsas bəhanə guya "məxməri inqilab"dan sonra ölkədə demokratiya quruculuğuna dəstək məsələsidir. Təəssüf ki, ABŞ Konqresi son günlər erməni diasporuna yaxınlığı ilə tanınan konqresmenlərin təsiri ilə Qarabağ münaqişəsinə aid 2 düzəliş qəbul edib. Verilən qərarlar ABŞ-ın Azərbaycana silah satmasına məhdudiyyətlər qoyur və Qarabağda münaqişə zonasında atəşkəs rejiminin pozulmasının fiksasiya edəcək lokatorların quraşdırılmasını nəzərdə tutur.

Belə bir şəraitdə öz mənfur planlarının həyata keçməsinə çalışan Ermənistan rəhbərliyi və ABŞ-dakı erməni diasporu Konqreslə əlaqələri genişləndirməkdədir. Azərbaycan və Türkiyə diasporları dərhal hərəkətə keçməli və əks tədbirlər görülməlidir. Paşinyanın diplomatlarla qapalı görüşü, ABŞ Konqresində anti-Azərbaycan fəaliyyətləri, Keşikçidağda ölkəmizə qarşı təxribat Azərbaycana qarşı məkrli planlardan xəbər verir".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident postunu hədəfləmiş Paşinyan "Sarkisyan konstitusiyasını" dəyişəcəyinin anonsunu verdi...

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkənin Konstitusiyasına dəyişikliklər ediləcəyinin anonsunu verib. Qeyd edək ki, Paşinyanın məhkəmə sistemi, xüsusilə də Konstitusiya Məhkəməsi ətrafında apardığı "islahatlar" Venesiya Komissiyası tərəfindən sərt tənqid edilib.**



Buna görə də Paşinyanın məsələyə münasibət bildirəcəyi gözlənilirdi. Baş nazir bütün bu islahatların zəruriliyini əsaslandırmaq üçün, ümumiyyətlə, yeni Konstitusiyanın qəbuluna ehtiyacın olduğunu bildirib: "Hesab etmirəm ki, biz Konstitusiyanı tez-tez dəyişməliyik. Bizim hazırkı Konstitusiyamız legitim əsaslarla formalaşmayıb. Bu heç də o anlama gəlməməlidir ki, yeni hakimiyyət özünə yeni Konstitusiya qanunu formalaşdırmaq istəyir. Amma bizim elə Konstitusiyamız olmalıdır ki, ona bütün xalq səs versin. Konstitusiya Məhkəməsi ilə bağlı yeniliklərin qəbulu belə addımın atılmasını və ana qanuna bəzi dəyişikliklərin edilməsini zəruri edir".

Ancaq əksər ekspertlər hesab edirlər ki, Paşinyanın Konstitusiyanı dəyişməkdə başlıca məqsədi ölkəni əvvəlki idarəetmə üsuluna qaytarmaqdır. Yəni prezident üsul-idarəsini tətbiq etməyə çalışır və bununla da özünün prezident seçilməsini istəyir. Onun anonsunu verdiyi Konstitusiya islahatının arxasında bu maraq, istək dayana bilərmi?

***Hatəm Cabbarlı:** "...müəyyən siyasi-taktiki gedişlər etməyə məhkumdur"*

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gələndən sonra o, de-fakto olaraq Ermənistanı idarə etməkdə ciddi problemlərlə qarşılaşır: "Bu həm daxili, həm də xarici siyasət kursunda özünü göstərir. Paşinyan bütün dövlət strukturlarında nəzarəti tam bərpa edə bilmədiyini gözəl anlayır. Xüsusilə də Koçəryanın həbs edilməsindən sonra onun yenidən azad olunması göstərdi ki, Paşinyan daxildəki ziddiyyətləri tam yoluna qoya bilməyib. Buna görə də Paşinyan ilk olaraq onun iradəsinə tam tabe olmayan hüquq-mühafizə və məhkəmə sektorunda islahatların aparılmasını zəruri sayıb. Xüsusən də o, Konstitusiya Məhkəməsi ilə bağlı mövzunu gündəmə gətirir və həmin təsisatın Ermənistanın bugünkü reallıqlarına tam cavab vermədiyini bəyan edir. Əslində, Paşinyanın Konstitusiyanı dəyişmək üçün parlamentdə tam potensialı mövcuddur. Ancaq o hesab edir ki, ölkənin daxili ictimai rəyində və Avropa qurumlarının reaksiyasında müəyyən problemlərlə qarşılaşa bilər. Onun əsas məqsədi hakimiyyətini möhkəmlətməkdir. Onun islahatların zəruriliyi ilə bağlı verdiyi son açıqlamasında prezident olmaq istədiyinə dair hansısa açıq fikri söylədiyini görmürük. Əslində, Ermənistanın yenidən prezident üsul-idarəsinə keçmə ehtimalı olduqca zəif görünür. Bu, olduqca ağır prosesdir. Hər şeydən əvvəl daxili ictimai rəy və beynəlxalq təşkilatlar buna hazırlanmalıdır. Bu həm də Ermənistan üçün ciddi maliyyə yükü deməkdir. Oranın daxili rəyi hələ ki, bunu qəbul etmir. Buna görə də hökumətin dərhal belə bir addım ata biləcəyi inandırıcı sayılmır.

Hesab edirəm ki, ilkin mərhələdə Paşinyan Baş nazir kimi hüquq-mühafizə orqanları və Konstitusiya Məhkəməsi üzərindəki hakimiyyətini tam möhkəmləndirməyə çalışacaq. Konstitusiya islahatları da məhz həmin sahəni əhatə edəcək. Belə görünür ki, 2020-ci ildə bu istiqamətdə ciddi addımlar atılacaq. Nikol Paşinyan dərk edir ki, onun reytinqi azalır və xalqın dəstəyindən məhrum olsa, hakimiyyəti saxlamaq çətin olacaq. Bu baxımdan da müəyyən siyasi-taktiki gedişlər etməyə məhkumdur".

***Məhəmmədəli QƏRİBLİ***

# Müxtəlif ixtisaslar üzrə keçid bu il də 50-70 bal aşağı salınacaq...

**2019-cu ildə keçirilən qəbul imtahanları başa çatıb. Ali məktəb və kolleclərə ixtisas seçiminin vaxtı müəyyənləşib. Ümumiyyətlə, ali məktəb tələbəsi olmaq üçün ixtisas seçimində düzgün yanaşma həlledicidir.**

### *Kamran Əsədov: "...2018-ci illə müqayisədə imtahanlarda yüksək bal toplayan abituriyentlərin sayının az olduğunu göstərir"*



Ötən illə müqayisədə bu il ixtisas qrupları üzrə plan yerlərinin sayı artırılıb. Bu isə cari ildə imtahan verən abituriyentlər üçün seçim şansını artırır.

Ehtimal olunur ki, bu il ixtisas seçimi zamanı keçid balları aşağı salınsın. Təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, 2019-cu ildə ixtisaslar üzrə keçid balları I və IV qrupda azı 50-70 bal aşağı düşəcək.

O, Dövlət İmtahan Mərkəzinin "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" vəsaitinə istinadən builki imtahanların nəticələri haqqında statistikaya toxundu. Ekspert bildirdi ki, I ixtisas qrupu üzrə 1 nəfər 690-700 arası bal toplayıb: "14 nəfər 680-690 arası bal, 29 nəfər 670-680 arası bal, 46 nəfər 660-670 arası bal, 53 nəfər 650-600 arası bal toplayıb. Ümumilikdə, I ixtisas qrupu üzrə 650-dən çox bal toplayan abituriyentlərin sayı 143 nəfər, 600-dən çox bal toplayan abituriyentlərin sayı 554 nəfər, 500-dən çox bal toplayan abituriyentlərin sayı 1866 nəfər, 400-dən çox bal toplayan abituriyentlərin sayı isə 3939 nəfərdir. Yəni 2018-ci illə müqayisədə bu il imtahanlarda yüksək bal toplayan abituriyentlərin sayı azdır.

Üç nəfər IV ixtisas qrupu üzrə 690-700 arası bal toplayıb. 111 nəfər 680-690 arası bal, 22 nəfər 670-680 arası bal, 26 nəfər 660-670 arası bal, 39 nəfər isə 650-600 arası bal toplayıb.

Ümumilikdə isə IV ixtisas qrupu üzrə 650-dən çox bal toplayan abituriyentlərin sayı 101 nəfər, 600-dən çox bal toplayan abituriyentlərin sayı 378 nəfər, 500-dən çox bal toplayan abituriyentlərin sayı 1083 nəfər, 400-dən çox bal toplayan abituriyentlərin sayı isə 1831 nəfərdir. Bu da 2018-ci illə müqayisədə imtahanlarda yüksək bal toplayan abituriyentlərin sayının az olduğunu göstərir".

***Günel CƏLİLOVA***

# 5 ildə 7 min tələbə təhsil haqqı probleminə görə təhsildən imtina edibsə...

**Açıqlanan statistik rəqəmlərə əsasən, son 5 il ərzində 7 min şəxs təhsil haqqını ödəyə bilmədiyi üçün ali təhsilini yarımçıq qoyub, ali təhsil almaqdan imtina edib. Məlumdur ki, ölkəmizdəki təhsil ocaqlarının ixtisas üzrə ortalama təhsil haqqı 2 min manat təşkil edir. Bəzi ixtisaslar üzrə bu rəqəm 6500, 5000, 4500 manatdır ki, bu məbləğin də ödənilməsi hər ailənin gəlirlərinə uyğun deyil.**

### *"Elə tələbələr tanıyıram ki, 3-cü kursa kimi borc-xərclə bir təhər oxuyub, ancaq sonradan..."*

### *Məlahət Mürşüdlü: "Ödənişli ixtisaslarda oxumaq üçün təhsil kreditlərinin verilməsi vacibdir"*




Ölkədə fəaliyyət göstərən 50-dən çox ali təhsil müəssisəsində 160 mindən çox tələbə var ki, onların da 70 faizi öz vəsaitləri hesabına, yəni ödənişli əsaslarla təhsil alır.

Ödənişli ixtisasa qəbul olunanların bir qismi təhsil haqqını ödəməkdə çətinlik çəkdiyi üçün təhsili yarımçıq qoyur. Bu cür gənclərə dəstək olmaq üçün onlara təhsil krediti verilir. Ancaq bizdə bu məsələ hələ gerçək olmayıb. Çünki təhsil krediti ilə bağlı qanun layihəsi hələ hazır deyil.

Qeyd edək ki, inkişaf etmiş ölkələrdə vətəndaşlar üçün təhsil kreditləri var. Məsələn, Kanadada bu işi üzərinə dövlət götürüb. Belə ki, Kanada dövləti tələbələrə güzəştli kreditlər verir. Tələbələr dövlətlə müqavilə bağlayırlar. Bu həm ölkədə təhsil səviyyəsinin artmasına səbəb olur, həm tələbələr yaxşı oxumağa çalışırlar ki, universiteti bitirəndən sonra yaxşı mütəxəssis kimi özlərinə iş tapa bilsinlər, həm də dövlət ölkə universitetlərinə maddi dayaq olur.

Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü bildirdi ki, tələbə adı qazananların ödənişli ixtisaslarda oxuya bilmələrinin tək çıxış yolunu təhsil kreditində görür: "Ödənişli ixtisaslarda oxumaq üçün təhsil kreditlərinin verilməsi vacibdir. Tək çıxış yolu da budur. Bank o krediti tələbə ilə müqavilə bağlayaraq verməli, tələbə də ali məktəbi bitirdikdən sonra işləyəndə onun maaşından çıxılmalıdır. Bizdə dövlət universitetləri pulsuz olmalıdır. Bu, Konstitusiyada da göstərilib ki, dövlət təhsil müəssisələrində, istər orta məktəbdə, istərsə də ali məktəblərdə təhsil pulsuzdur. Ancaq təəssüf ki, universitetlərimizin 80-85 faizində təhsil pulludur. Camaatın sosial-iqtisadi vəziyyəti nəzərə alınmadan çox yüksək təhsil haqları təyin edilir. Bu üzdən də tələbələrin çoxu Türkiyə universitetlərinə üz tutur. Çünki orada ödənişli təhsil Azərbaycandakından dəfələrlə aşağıdır. Türkiyənin yüksək səviyyəli universitetlərində təhsil haqları 500-700 dollar arasındadır. Ancaq bizdə bundan dəfələrlə çoxdur və hər il də artmaqda davam edir.

Elə tələbələr tanıyıram ki, 3-cü kursa kimi borc-xərclə bir təhər oxuyub. Ancaq sonradan təhsil haqqını ödəyə bilmədiyi üçün təhsilini yarımçıq qoymalı olub. Yaxud da uşaqlar var ki, gündüz dərsə gəlir, gecələr də işləyirlər. Dərsdə də başını partaya qoyub yatır. Bu adamı qınamaq da olmur. Axı bu uşaq təhsil haqqını ödəmək üçün gecələr işləyir".

***Günel CƏLİLOVA***

# Bu ilin tək altı ayında əhali gəlirləri 6 faizdən çox artıb, bu gedişlə...

**İlkin məlumatlara görə, 2019-cu ilin yanvar-iyun aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 6,6 faiz artaraq 27 355,8 milyon manat təşkil edib. Əhalinin hər nəfərinə orta hesabla 2768,6 manatlıq gəlir düşüb.**



Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 25 131,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 6,7 faiz çox vəsait qalıb.

2019-cu ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 7,9 faiz artaraq 583,7 manat təşkil edib.

Əməkhaqqı neft sektorunda 3168,5 manat, qeyri neft-qaz sektorunda 524,7 manat təşkil edib.

## *Fikrət Yusifov: "Bu il ərzində ölkədə əməkhaqlarının artırılması ilə bağlı bir sıra addımlar atıldı"*

Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 471,9 manat, özəl müəssisələrdə isə 730,3 manat olub. Mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi-texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olub.

Bütün bunların fonunda ölkə əhalisinin nominal gəlirlərinin əvvəlki ilin eyni dövrünə nisbətən 6,6 faiz artması nəyin göstəricisidir və ekspertlər bunu necə dəyərləndirirlər?

*"Digər tərəfdən, iqtisadiyyatda, o cümlədən, qeyri-neft sektorunda müəyyən artımlar müşahidə olunur"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən iqtisad elmləri doktoru Fikrət Yusifov əhalinin nominal gəlirlərinin artmasını bir sıra amillərlə əlaqələndirdi: "Bu il ərzində ölkədə əməkhaqlarının artırılması ilə bağlı bir sıra addımlar atıldı. Artımlar ilk növbədə bununla bağlıdır.

Digər tərəfdən, iqtisadiyyatda, o cümlədən, qeyri-neft sektorunda müəyyən artımlar müşahidə olunur. Bütövlükdə, iqtisadiyyatda gedən artım prosesləri və əməkhaqlarının, pensiyaların artırılması bunlarla bilavasitə bağlıdır. Yəni bu yöndə verilmiş qərarlarla bilavasitə bağlıdır. Onu da nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev sentyabrın 1-dən əməkhaqqının artırılması ilə bağlı qərar qəbul edib. İlin yekununda əhalinin nominal gəlirləri daha da artacaq. Bütün bunlar ölkədəki iqtisadi inkişafdan xəbər verir. Ona görə də əhalinin nominal gəlirlərinin artmasına müsbət baxıram".

***Vidadi ORDAHALLI***

# Gömrük Komitəsi ölkəyə "Mutlu" akkumulyatorları gətirən şirkətin əsassız iddiasının axırına çıxdı...

**Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin məlumatına görə, iyulun 17-də bəzi kütləvi informasiya vasitələrində Dövlət Gömrük Komitəsinin Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi haqqında həqiqətə uyğun olmayan, böhtan xarakterli ittihamlar irəli sürülüb.**




"Rovel Trading" şirkətinin direktoru İntiqam Həsənovun verdiyi iddia edilən məlumatlarda guya Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi tərəfindən adıçəkilən şirkətin mallarının sənədlərində uyğunsuzluq olmadığı halda qanunsuz şəkildə saxlandığı və qanunla müəyyən edilən miqdardan artıq gömrük ödənişlərinin tələb olunduğu iddia edilir.

"Rovel Trading" MMC "Dörtel Otomotiv San ve Pazarlama Tic. Ltd. Şti" şirkətindən idxal edilən "Mutlu" markalı müxtəlif növ elektrik akkumulyatorlarının gömrük rəsmiləşdirilməsinin aparılması üçün cari ilin iyul ayının 8-də Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinə müraciət edib. Qeyd olunan malların gömrük rəsmiləşdirilməsi zamanı Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 221-ci maddəsinə, həmçinin "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanunun 12.1.2-ci maddəsinə, yəni gömrük dəyərinin müəyyən edilməsinin 2-ci üsuluna əsasən araşdırma aparılıb. Araşdırma nəticəsində idxal olunan "Mutlu" markalı müxtəlif növ elektrik akkumulyatorlarının gömrük dəyəri ilə bundan əvvəl ən yaxın tarixdə həmin şirkət tərəfindən gətirilən eyni adda malların dəyəri arasında 10 200 manat kəskin fərqin olduğu müəyyən edilib. Bu səbəbdən həmin gömrük bəyannamələrində gömrük dəyərinə müvafiq düzəlişlərin edilməsi barədə qeydlər aparılıb və bu barədə "Rovel Trading" MMC-yə məktubla məlumat verilib.

Qeyd edək ki, saxlanc xüsusi gömrük proseduru altında malların gömrük rəsmiləşdirilməsi Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 176-178-ci maddələrinin və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 27 avqust 2013-cü il tarixli 229 nömrəli Qərarının tələblərinə uyğun həyata keçirilməlidir. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 178.3-cü və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 avqust 2013-cü il tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş "Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nın 2.4-cü maddələrinə əsasən, malların müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi zamanı gömrük orqanları prosedur sahibindən yarana biləcək gömrük borcuna görə təminat tələb etmək hüququna malikdirlər.

Eyni zamanda, Gömrük Məcəlləsinin 250.4-cü maddəsinə əsasən, təminatın məbləğini gömrük orqanları müəyyən edir və bu məbləğ malların və nəqliyyat vasitəsinin sərbəst dövriyyə üçün buraxılış gömrük prosedurundan ötrü nəzərdə tutulmuş gömrük ödənişlərinə ekvivalent məbləğdə təyin olunur.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 163.3-cü maddəsinə əsasən, gömrük orqanları malları bəyan edildiyi gömrük proseduruna və bu Məcəllənin 45-ci fəslinə uyğun olaraq gömrük ödənişlərinə təminat verilməsini tələb etdikdə, həmin tələb yerinə yetirilməyənədək mallar müvafiq gömrük proseduruna buraxılmır.

Onu da qeyd edək ki, bu, "Rovel Trading" MMC-nin gömrük qanunvericiliyini pozması ilə bağlı ilk cəhdi deyil. Belə ki, həmin şirkət Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin qərarı ilə 2017-ci ildə İnzibati Xətalar Məcəlləsinin 491.1 maddəsinin tələblərini pozduğuna görə 57481 manat məbləğində cərimə olunub.

"Axsaq atın kor nalbəndi olar" məsəlində deyildiyi kimi, dəfələrlə qanunlardan və dövlət büdcəsinə çatacaq vəsaitləri ödəməkdən yayınmağa çalışan "Rovel Trading" MMC özünə elə özü kimi də havadarlar tapıb. Lakin "Rovel Trading" MMC kimilərin diqqətinə çatdırırıq ki, başqalarinin diqtəsi ilə hərəkət edən, şəxsi və maddi maraqlarını hər şeydən üstün tutan, yayımladığı hər məlumatdan şantaj, böhtan qoxusu gələn bəzi üzdəniraq media qurumları vasitəsilə ölkənin strateji qurumuna qarşı qarayaxma kampaniyası aparmaqdansa, qanuni ticarətlə məşğul olmaq, qanunvericiliyə əməl etmək daha faydalıdır. Bu həm də vaxta və vəsaitə qənaət etmək baxımından səmərəlidir.

Dövlət Gömrük Komitəsindən o da bildirildi ki, DGK fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, həmçinin Nazirlər Kabinetinin Qərarları əsasında həyata keçirir və hər zaman qanuni ticarətin inkişafına dəstək verir.

***Baki-xeber.com***

**Azərbaycanda tikinti şirkətlərinin qarşısına yeni tələblər qoyulub. Çoxmərtəbəli bina inşa edən sahibkarlar ərazinin 40, müstəsna hallarda 30 faizində yaşıllıq salmalıdırlar. Bu barədə mətbuata açıqlamasında Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Bitkilərin mühafizəsi şöbəsinin rəisi Orxan Məmmədov məlumat verib.**

# Bina tikən MTK-lara yeni və gərəkli tələb - ərazinin azı 40 faizini yaşıllaşdırmalısınız...




## Rəsul Cahangirli: *"Hesab edirəm ki, bu tələb Bakının ekoloji vəziyyətinin yaxşılaşması üçün əhəmiyyət kəsb edir"*

O, bildirib ki, bu qayda paytaxtda yaşayış binası inşa edən bütün tikinti şirkətlərinə şamil ediləcək. O.Məmmədovun sözlərinə görə, indiyədək tikinti şirkətlərinin çoxu yaşayış binası inşa edərkən ərazini yaşıllaşdırmağa maraq göstərməyib. Amma bundan sonra tikinti şirkətlərinin hər biri bu tələbə əməl etməli, yeni bina inşa edərkən ərazinin 40, müstəsna hallarda 30 faizində yaşıllıq salmalı olacaqlar.

Şöbə rəisi bildirib ki, bu tələbə əməl etməyən tikinti şirkətlərinə qanunun icrası məcburi olacaq: "Əgər hansısa tikinti şirkəti buna əməl etməyəcəksə, məcburi qaydada yaşıllığın salınması təmin ediləcək".

O da məlum olub ki, bu məsələ "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi normaları"nda öz əksini tapıb. Belə ki, bu normalar Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 68.2-ci maddəsinə uyğun olaraq hazırlanıb və yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi qaydalarını müəyyən edir: "Bu normalara görə, yaşayış məntəqələrinin layihələndirilməsi zamanı yaşıllıq ərazinin minimum 40 faizini təşkil etməlidir. Amma müstəsna hal kimi 30 faiz də götürülə bilər. Yeni qayda beş il və daha əvvəl inşa olunmuş binalara aid deyil".

O da məlumdur ki, indiyədək tikinti şirkətlərinin mütləq əksəriyyəti necə gəldi binaları inşa ediblər. Nəzərə alsaq ki, Bakıda əhalinin sayı çoxaldığı üçün sıxlıq xeyli artıb, yaşıllıqların artırılması ekoloji baxımdan çox vacibdir.

Bu qərarı ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, çoxmərtəbəli bina inşa edən sahibkarlar qarşısında belə bir tələbin qoyulması vacib addımdır: "Görək tikinti şirkətləri bundan sonra sözügedən qaydaya necə əməl edəcəklər. Məsələ ondadır ki, bu sahədə ciddi problemlər var. Əksər tikinti şirkəti çoxmənzilli binalar tikərkən yaşıllıqların salınmasına maraq göstərməyib. Düzdür, bundan əvvəl də bununla bağlı tələb var idi, amma bu məcburi deyildi. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu sahədə qanunda yaranan boşluqlardan istifadə edən sahibkarlar yaşıllıqların salınmasına əhəmiyyət vermirdilər. Aldıqları ərazilərdə binalar inşa edirdilər. Bəzən ərazidə binaları o qədər bir-birinə yaxın inşa edirdilər ki, yaşıllıqların salınması üçün yer belə qalmırdı. O da heç kəsə sirr deyil ki, Bakıda yaşıllıqları qırıb yerində binaların tikilməsi halları da olub. Son illər bu sahədə vəziyyət xeyli dəyişib. Bina tikintisi ilə bağlı yeni normalar müəyyənləşdirilib. Hesab edirəm ki, bu tələb Bakının ekoloji vəziyyətinin yaxşılaşması üçün əhəmiyyət kəsb edir. Ona görə ki, çoxmənzilli binaların ətrafında yaşıllıqların salınması həyati əhəmiyyət kəsb edir. Təəssüflər olsun ki, bu sahədə hazırkı vəziyyət qənaətbəxş deyil. Müqayisə üçün qeyd edək ki, Ukraynanın paytaxtı Kiyev şəhəri yaşıllıqlar içindədir.

### *"Elə bir mexanizm yaradılmalıdır ki, tikinti şirkətləri bu tələbə praktiki olaraq əməl etsinlər"*

**Orada binaların həyətlərində yaşıllıqların salınmasına xüsusi diqqət göstərilir. Ən nəhayət, bu qərara tikinti şirkətlərinin bundan sonra necə əməl edəcəklərinə diqqət edilməlidir. Elə bir mexanizm yaradılmalıdır ki, tikinti şirkətləri bu tələbə praktiki olaraq əməl etsinlər".**

***Vidadi ORDAHALLI***

---

**İsti yay günlərində əhalinin istirahət etmək üçün üz tutduğu məkanlardan biri də çayxanalardır. Bu məkanlarda cəmiyyətin müxtəlif zümrələrində təmsil olunan insanlara rast gəlmək olur. Yəni həm fəhlə, həm alim, həm ziyalı, həm məmur, həm də tələbələr çayxanalara üz tutur, söhbət edir, görüşlər keçirir və s.**

# Bakı çayxanalarında 1 çaynik çay, üstəgəl bir neçə qaşıq mürəbbə - 10 manat...



## Eyyub Hüseynov: *"Çayxanalarda qiymətlərin bu qədər baha olması istehlakçı hüquqlarının pozulması ilə bərabər, turizmin inkişafına da zərər vurur"*

Havaların isti keçməsi isə çayxanalara daha çox adamın gəlməsinə səbəb olur. Xüsusilə şəhərin mərkəzində və dənizkənarı milli parkdakı çayxanalarda insan əlindən tərpənmək mümkün deyil. Lakin bu məkanlarda təklif olunan çayın qiyməti çox bahadır. Yəni 10 manatdan aşağı deyil. Faktiki olaraq şəhərdəki çayxanalarda qiymətlər od tutub yanır.

Məsələn, Hüseyn Cavid parkında fəaliyyət göstərən çayxanada çayın qiyməti 8 manatdan aşağı deyil. Belə ki, başqa yerlərdə olduğu kimi, buradakı çayxanalarda da sadə çay verilmir, çay içmək istəyənlər mütləq çayın yanında nə isə sifariş verməlidirlər. Belə ki, 8 manatlıq çay dəsgahına 1 çaynik çay, limon və azaçıq mürəbbə daxildir. Əgər çayın yanında qəlyan və şirniyyat sifariş verilərsə, bu zaman çay müştəriyə 30 manata başa gəlir. Maraqlısı odur ki, 30 manatlıq çay dəsgahına daxil olan azuqələrin qiymətlərini ayrılıqda hesabladıqda əhalidən 3 qat artıq pul alındığı məlum olur. Qiymətlərin bu qədər baha olması çayxanaya gələnlərin də narazılığına səbəb olur. Ümumilikdə, şəhərdəki parklarda yerləşən çayxanalarda qiymətlərin bu qədər yüksək olmasının hansısa əsası varmı?

### *"Bu tamamilə anormal bir vəziyyətdir"*

Məsələyə münasibət bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, çayxanalarda bu cür anormal qiymətlərin heç bir iqtisadi əsası yoxdur: "Əvvəla tələb artanda qiymətlər yüksəlir. Ona görə də sahibkar özü baxır bazardakı vəziyyətə və buna uyğun qiymət təyin edir. Lakin bu sahədə ciddi problemlərdən biri çayxanalarda baha qiymətə çayın istehlakçılara təklif edilməsidir. Deyirlər ki, çayla mürəbbə götürməsən, çay verilməyəcək. Bu tamamilə anormal bir vəziyyətdir. Ümumiyyətlə, çayxanalarda qiymətlərin bu qədər baha olması istehlakçı hüquqlarının pozulması ilə bərabər, Azərbaycanda turizmin inkişafına da zərər vurur.

Azərbaycan çayxanaları ilə fəxr edə bilər, amma gərək biznes qurumları hökumətin onlar üçün yaratdığı bu rahat şəraitdən sui-istifadə etməsinlər. Düşünürəm ki, dövlətin biznes qurumları, o cümlədən, çayxanalar üçün yaratdığı rahat şəraitdən sahibkarlar sui-istifadə edirlər. Nəticədə istehlakçı hüquqlarını pozurlar. Belə işlərdə biznes mədəniyyəti, mərifəti olmalıdır. Hökumətin apardığı siyasətə dəstək verməlidirlər ki, qiymətlər aşağı olsun. O cümlədən belə xoşagəlməz hallar olmasın".

***Vidadi ORDAHALLI***

# Azərbaycan atçılıq təsərrüfatı işçilərinin sosial problemləri...

## Maarif Hüseynov: "Özəl atçılıq mərkəzlərində mehtərlərə, çaparlara ən azı 300, 400, 500 manat əməkhaqqı verildiyi halda, bizdə isə 160-170 manat əməkhaqqı alırlar"

**Azərbaycanı bütün dünyada tanıdan məşhur Qarabağ atlarının nəslinin artırılması, inkişaf etdirilməsi, bu at cinsinin daha uzunömürlü olması üçün dövlət tərəfindən xüsusi qayğı göstərilir. Məlum olduğu kimi, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksi fəaliyyət göstərir və kompleksdə Qarabağ atları yetişdirilir.**

Bu gün sözügedən kompleksdə atlara baxan mehtərlər, çaparlar, eləcə də digər şəxslər fəaliyyət göstərirlər. Onu da vurğulayaq ki, son illər ölkəmizdə atçılığa maraq artıb və dövlətin nəzdində olan atçılıq mərkəzləri ilə bərabər özəl atçılıq mərkəzləri də mövcuddur.

Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksinin direktoru Maarif Hüseynov "Bakı-Xəbər"ə bildirdi ki, kompleksdə Qarabağ atları xüsusi qayğı altında bəslənir. O bu sahəyə dövlət qayğısının göstərildiyini bildirməklə yanaşı, dedi ki, Qarabağ atlarının yaşadılması dövlətin diqqət mərkəzindədir.

M.Hüseynovun sözlərinə görə, ata baxmaq olduqca çətin, eyni zamanda da təhlükəli bir işdir. Bəzi hallarda atlar onlara baxan mehtərlərə, eləcə də çaparlara xəsarət yetirirlər. "Bizim xüsusi qeydiyyat dəftərimizdə atların adları, nəsil-kökü qeyd edilir. Yeganə heyvandır ki, onun əsli-nəsli məlumdur. Atçılıq çox maraqlı və gözəl, eyni zamanda da çətin bir sahədir. Atı saxlamaq həddən artıq çətindir. Qulun olandan sonra onu elə bəsləməlisən ki, o cıdıra çıxanda, sərgiyə aparılanda bütün gözəllikləri özündə saxlayıb göstərsin, həm də yaxşı qaça, 2, 4 min metrlik məsafəni qət edə bilsin. Bunun üçün də atların saxlanmasında, yetişdirilməsində böyük əməyi olan mehtərlərə, çaparlara yüksək əməkhaqqı verilməlidir. Bu mütləqdir. Özəl atçılıq mərkəzlərində mehtərlərə, çaparlara ən azı 300, 400, 500 manat əməkhaqqı verildiyi halda, bizdə isə 160-170 manat əməkhaqqı alırlar. Özəl yerlərdə bir ata baxana bu qədər maaş verilir. Bizimkilər isə ən azından 12 baş ata baxırlar. Ən qorxulu, təhlükəli iş at saxlamaqdır. Birdən təsadüfən olur ki, at hürkür, ona baxan mehtərə təpik atır və bu da faciə ilə nəticələnir. Bəzən görürsən ki, çapar atı çapanda at yıxılır, özünün ayağı qırılır, insan tələfatı olur. Bunlar olduqca çətin iş olduğu üçün, işçilər yüksək əməkhaqqı tələb edir. Məsələn, deyirlər ki, mənə 500 manat maaş ver, mən mehtər, çapar işləyim. Bu həm də iyili-qoxulu sahədir. Mehtərlər, çaparlar daim atın yanında durub ona qulluq göstərirlər ki, at öz sahibini yaxşı tanısın, ona sədaqətli olsun, qaçışlarda, sərgilərdə şıltaqlıq etməsin, göstərilən proqramı həyata keçirsin" - deyə M.Hüseynov bildirdi.

M.Hüseynov, həmçinin, bildirdi ki, işçilərin əməkhaqqının aşağı olmasına baxmayaraq, onlar atlara çox yüksək səviyyədə qulluq göstərirlər. O dedi ki, Azərbaycanın milli sərvəti olan Qarabağ atları dünyada ən qədim mədəni at cinslərindən olmaqla, əsrlər boyu aparılan xalq seleksiyası sayəsində bu bölgədə formalaşıb. Qarabağ atlarının cins kimi təkmilləşdirilməsində və böyük şöhrət qazanaraq yayılmasında Qarabağın xan zavodlarının əvəzsiz rolu olduğunu deyən müsahibimizin bildirdiyinə görə, XVIII-XIX əsrlər Qarabağ atçılığının qızıl dövrü hesab edilir.

Qeyd edək ki, XX əsrdə isə Qarabağ atı cinsinin tarixində ən önəmli hadisə Ağdam atçılıq zavodunun yaradılmasıdır. Bu zavod rəsmi olaraq SSRİ Nazirlər Sovetinin 1948-ci il 8 oktyabr, Azərbaycan SSR Nazirlər Sovetinin isə 1949-cu il 27 may tarixli qərarları əsasında, Xaldan quşçuluq sovxozunun ərazisində yaradılıb. Zavod 1949-cu ilin sentyabrında Ağdam rayonu yaxınlığındakı Göytəpə adlanan əraziyə, vaxtilə xan zavodlarına məxsus atların məskunlaşdığı yerlərdən birinə köçürülüb.

1993-cü ildə Ağdam rayonunun erməni təcavüzkarları tərəfindən işğal edilməsindən sonra Azərbaycanın milli sərvəti, yerli genefondun əsaslarından olan Qarabağ atları köçkünlük həyatı yaşayır. Qarabağ atçılıq kompleksi 1994-cü ildən isə Ağcabədi rayonunun Xamtorpaq ərazisində fəaliyyət göstərir. Bütün çətinliklərə baxmayaraq, Qarabağ atlarını bu günədək qoruyub saxlamaq mümkün olub. Son illər isə dövlət tərəfindən Azərbaycan atlarının şan-şöhrətinin özünə qaytarılması, ölkəmizdə atçılığın inkişafının təmin edilməsi üçün ciddi işlər görülür.

2007-ci ildə "Atçılıq haqqında" Qanun qəbul olunub. Bu qanunun tətbiqi ilə əlaqədar Prezident İlham Əliyev tərəfindən müvafiq Fərman imzalanıb, atçılığın inkişafı üzrə Proqram təsdiqlənib. Prezident İlham Əliyevin "Azərbaycanda Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında" 2014-cü il 19 noyabr və "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" 2015-ci il 21 avqust tarixli sərəncamları isə Qarabağ atının genefondunun qorunmasında, tarixi şöhrətinin özünə qaytarılmasında mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyev 2017-ci il fevralın 22-də isə bu sahə ilə bağlı daha bir Sərəncam imzalayıb.

Sərəncama əsasən, Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, bu sahədə seleksiya damazlıq işlərinin elmi əsaslarla aparılmasına şərait yaradılması istiqamətində həyata keçirilən tədbirlər başa çatdırılıb və "Qarabağ Atçılıq Təsərrüfatı" MMC-nin atçılıq kompleksi inşa olunub.

2018-ci ilin noyabrında isə ölkə başçısının iştirakı ilə sözügedən kompleksin açılış mərasimi olub.



"Atların saxlanmasında, yetişdirilməsində böyük əməyi olan mehtərlərə, çaparlara yüksək əməkhaqqı verilməlidir"

**İradə SARIYEVA**

**Ölkəmizdə boşanma hallarının çoxalması səbəbindən bunun artmaması üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində işlər görülür. Həm bu, həm də digər mübahisəli məsələlərin məhkəməyə qədər həll olunması yönündə Mediasiya xidməti fəaliyyətə başlayıb.**

# Azərbaycanda ailə, əmək mübahisələrində Mediasiya xidməti öz praktik nəticələrini göstərməyə başladı

***Əlimǝmmǝd Nuriyev:** "Mediasiya xidməti ölkəmizdə özünü doğruldacaq"*



Əmək, ailə və iqtisadi mübahisələrin məhkəməyə qədər mediasiya xidməti vasitəsilə həlli üçün hallar müəyyənləşib. Baş nazir Novruz Məmmədovun təsdiq etdiyi "İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği"nə dair qərar 2020-ci il iyulun 1-dən qüvvəyə minir.

Azərbaycanda yeni institut olan Mediasiya xidmətinin tətbiqinə artıq başlanıb. Məlumatlara görə, Azərbaycanda 2018-ci ilin aprel ayından bu ilin iyun ayınadək 317 ailə nikahın pozulmasından imtina edib.

Bütövlükdə, Mediasiya xidməti Azərbaycan mühitində işləyə biləcəkmi?

Tanınmış hüquqşünas Əlimәmmәd Nuriyev "Bakı-Xəbər"ə bildirdi ki, Mediasiya xidmətinin Azərbaycanda çox böyük perspektivi var. Mediasiya xidmətinin zərurətdən yaradıldığını deyən Ə.Nuriyevin sözlərinə görə, bunun əhəmiyyəti odur ki, bir sıra problemlər məhkəməyə gedib çıxmayacaq və yerindəcə həll olunacaq. "Mediasiya xidməti ölkəmizdə özünü doğruldacaq. Çünki buna artıq əsaslar da var. Bu xidmət yalnız nikah pozulmasının qarşısını almayacaq, eyni zamanda, əmək və iqtisadi məsələlərin də məhkəməyə gedib çıxmadan həllini həyata keçirəcək. Bu xidmətin göstərilməsi həm də məhkəmə xərclərinin azalmasına gətirib çıxaracaq, həmçinin, məhkəməyə gedişgəlişlərin qarşısını alacaq. İnsanlar arasında nikahın pozulmasının qarşısı alınmaqla yanaşı, həm də onlara məhkəmə prosesi izah ediləcək. Mediatorlar bütün bunları tərəflərə izah etməklə problemin həllinə nail olacaqlar. Yəni tərəflər arasında razılaşma əldə ediləcək. Onların işi məhkəməyə düşsə, tərəflərdən biri udacaq, o biri isə uduzacaq. Bu bütün məsələlərdə belədir. Özü də bu sahədə insanlara yalnız hüquq və vəzifələri anladılmayacaq, həm də hər şey onlara psixoloji tərəfdən izah ediləcək, yardım göstəriləcək. Bu baxımdan, Azərbaycanda mediasiyanın tətbiqi imkanları çox böyükdür. Bilirsiniz, ölkəmizdə mediasiyanın ənənəvi forması tarixən mövcud olub. Bu mənada ki, o vaxt ailə mübahisələrinin, eləcə də əmək və sairlə bağlı konfliktlərin həll olunmasında ağsaqqallar mühüm rol oynayırdılar, onlar tərəfləri barışdırıb problemin həllinə nail olurdular. Ağsaqqallar problemi elə həll edirdilər ki, bu məsələ məhkəməyə gedib çıxmırdı. Demək istəyirəm ki, Azərbaycanda bu prosesin şifahi ənənəsi var. Ona görə hesab edirəm ki,ölkəmizdə mediasiyanın perspektivi böyükdür. Məlumatıma görə, mediatorların tərəfləri razılığa gətirməsi nəticəsində 300-dən artıq ailə boşanmadan imtina edib, bu böyük uğurdur" - deyə Ə.Nuriyev vurğuladı.

*"Mediatorların tərəfləri razılığa gətirməsi nəticəsində 300-dən artıq ailə boşanmadan imtina edib, bu böyük uğurdur"*

O, həmçinin, qeyd etdi ki, mediasiya institutu rəsmi şəkildə formalaşmadığı dönəmlərdə Azərbaycanda QHT və Ədliyyə Nazirliyi boşanmaların qarşısının alınması üçün mediatorluq həyata keçiriblər.

***İradə SARIYEVA***

---

**Azərbaycan Aşıqlar Birliyi (AAB) tərəfindən "Çağdaş Azərbaycan aşıqlarının şeir antologiyası" nəşr edilib. "Gənclik" nəşriyyatında çap olunan antologiyanı AAB sədri, əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı və ADMİU-nun dosenti, fəlsəfə doktoru Altay Məmmədli nəşrə hazırlayıblar.**

# Azərbaycanda ilk dəfə "Çağdaş Azərbaycan aşıqlarının şeir antologiyası" nəşr olunub

***Məhərrəm Qasımlı:** "Azərbaycan Aşıqlar Birliyinin növbəti layihəsi olan "Çağdaş Azərbaycan aşıqlarının şeir antologiyası" cənab Prezidentin qayğısı ilə nəşr olunub"*




Kitabın redaktoru isə filologiya elmləri doktoru, professor Mahmud Allahmanlıdır.

AAB sədri Məhərrəm Qasımlı bizimlə söhbətində bildirdi ki, ilk dəfədir çağdaş Azərbaycan aşıqlarının şeirlərindən ibarət antologiya çap olunur. Kitabın Prezident İlham Əliyevin qərarı ilə ayrılan maliyyə hesabına çap edildiyini qeyd edən M.Qasımlının sözlərinə görə, ölkə başçısı mütəmadi olaraq aşıq sənətinə diqqət və qayğı göstərir.

Kitabda 61 müasir Azərbaycan aşığının şeirlərinin toplandığını deyən M.Qasımlının bildirdiyinə görə, nəşr hazırda yaşayıb-yaradan aşıqların poetik axtarışlarını əhatə edir. Aşıq şeirinin müxtəlif poetik biçimlərini - qoşma, gəraylı, təcnis, divani, müxəmməs, bayatı və s. çevrələyən bu antoloji nəşrin tarixən mövcud olan aşıq şeiri ənənəsinin bu gün də davam etdiyini təsdiqlədiyini deyən M.Qasımlı, həmçinin, bildirdi ki, aşıqların hazırda yaratdıqları şeirlərin poetik ruhunda elyurd məhəbbəti, qəhrəmanlıq, milli dövlətçiliyə bağlılıq, gözəlliyin, saflığın, halallığın, mərdliyin tərənnümü diqqət önündədir. Nəşrdə həm görkəmli ustad aşıqların, həm də gənc nəslə mənsub saz-söz ifaçılarının yaratdıqları poetik nümunələr xronoloji ardıcıllıqla verilib. "İlk dəfədir Azərbaycanda belə bir antologiya çap olunur. Biz bu nəşrdə müxtəlif aşıq mühitlərinin təmsilçiləri olan 61 aşığın şeirlərini toplamışıq. Bu aşıqların hamısı həyatdadır və yaradıcılıqlarını davam etdirirlər. Azərbaycan Aşıqlar Birliyinin növbəti layihəsi olan "Çağdaş Azərbaycan aşıqlarının şeir antologiyası" cənab Prezidentin qayğısı ilə nəşr olunub. Prezident İlham Əliyev hər zaman aşıq sənətinə xüsusi qayğı göstərib və bu gün də öz qayğı və diqqətini aşıqlardan əsirgəmir" - deyə M.Qasımlı qeyd etdi.

*"Biz bu nəşrdə müxtəlif aşıq mühitlərinin təmsilçiləri olan 61 aşığın şeirlərini toplamışıq"*

**"Çağdaş Azərbaycan aşıqlarının şeir antologiyası" Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, əməkdar mədəniyyət işçisi, ustad aşıq Mahmud Məmmədovun müxtəlif biçimli şeirləri ilə başlayır, gənc aşıq Pərviz Axundun poetik nümunələri ilə bitir.**

Kitaba "Sazın-sözün qanadı" adlı ön sözü AAB sədri, əməkdar elm xadimi, professor M.Qasımlı yazıb. Nəşrin geniş ictimaiyyətə təqdimatı payızda keçiriləcək.

***İradə SARIYEVA***

№ 127 (4025) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

19 İYUL 2019-cu il

www.baki-xeber.com

## "Nar Wi-Fi" ilә bağ mövsümündә internetsiz qalma!

**İsti yay günlәrini paytaxtdan kәnarda keçirmәk istәyәnlәr "Nar Wi-Fi" ilә yüksәk sürәtli internetә çıxış әldә edә bilәr. İstirahәt üçün bağa, başqa mәnzilә vә ya ofisә köçәnlәr, yaxud evindә әnәnәvi internetә qoşula bilmәyәnlәrin "Nar Wi-Fi" internet paylayıcısını özlәri ilә götürmәlәri yetәrlidir. Qısa müddәtdә "Nar Wi-Fi" ilә abunәçinin mәnzili 4G şәbәkәsi ilә әhatә olunacaq. Bu avadanlıq sayәsindә 30-dan artıq cihaz eyni anda sәrfәli qiymәtә yüksәk sürәtli internetә (LTE / 4G) çıxış әldә edir.**




İstәnilәn mәkanda sәrfәli qiymәtә yüksәk sürәtli internetә çıxış imkanı vermәsi vә mobil olması "Nar Wi-Fi" istifadәçilәrinin sayının artmasına sәbәb olub. Belә ki, son üç ayda "Nar Wi-Fi" istifadәçilәrinin sayı 180% artıb. Siz dә istәnilәn mәkanda "Nar"ın yüksәk sürәtli internetindәn yararlanmaq istәyirsinizsә, "Nar Wi-Fi" cihazını әldә edә bilәrsiniz. Ruterin satış mәntәqәlәri haqqında daha әtraflı mәlumatı nar.az saytından öyrәnmәk olar.

Qeyd edәk ki, avadanlığı abunәçinin özü rahat şәkildә quraşdıra bilәr. Müvafiq tarifli SIM kartı ruterә daxil etdikdәn vә enerji mәnbәyinә qoşduqdan sonra qurğu avtomatik olaraq işә düşür. Abunәçilәr avans ödәniş etmәklә hәm qurğunu әldә edir, hәm dә 6 aya qәdәr internetә çıxış imkanı qazanır. Qeyd edәk ki, "Nar Wi-Fi" ilә internet ADSL ilә müqayisәdә daha sürәtlidir vә abunәçilәrә 60 GB-a qәdәr limitsiz internet paketlәri tәqdim edilir. Qeyd edәk ki, avadanlıq "Nar" 4G-LTE şәbәkәsinin әhatә etdiyi hәr yerdә internetә çıxış әldә etmәk imkanı verir.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib."Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,5 %-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7800-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## Elan

Bağırova Cahanbanu İlham qızına Bakı Dövlәt Universitetі tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Xanlarov Aqil Tarıyel oğluna mәxsus, Bakı şәhәri, Xәtai rayonu, Mehmandarov küçәsi, 2942 "D" saylı sahәdә yerlәşәn 0.012113 ha torpaq sahәsinin 12.12.2012-ci il tarixli (N1112110208) çıxarışı itdiyi üçün etibarsız sayılır.

Hüseynov Azad Mirzә oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, Bәhram Ağayev küçәsi, ev 3, mәnzil 4 ünvanına verilmiş order itdiyi üçün etibarsız sayılır.

Nәsimi rayonu, Vaqif küçәsi 3, mәnzil 65-dә yaşayan Əliyeva Mәhbub Zәhmәt qızının adına verilmiş evin çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Bәrdә şәhәri, Nizami küçәsindә Şadlinski Vüqar Yunis oğlunun adına olan torpağın 61001004201394 nömrәli plan vә ölçü sәnәdi itdiyi üçün etibarsız sayılır.

Azercell

## "Azercell Telekom" MMC şirkәt haqda iddialara cavab verdi

**17 iyul 2019-cu il tarixindә "tech.liga.net" saytında vә bәzi başqa saytlarda yerlәşdirilәn "Большийе деньги. Компанийа из Баку причениваетcя к Водафоне Украине" https://tech.liga.net/telecom/article/bolshie-dengi-kompaniya-iz-baku-pritseniva-etsya-k-vodafone-ukraine - başlıqlı yazıya "Azercell Telekom" MMC olaraq aydınlıq gәtirmәk istәrdik.**

Vurğulamaq istәrdik ki, mәqalәdә qeyd edilәn mәlumatlar hәqiqәti әks etdirmir vә fәrziyyәlәrә әsaslanaraq oxucularda yanlış fikir formalaşdırmaq cәhdindәn başqa bir şey deyil. Hәmçinin, peşәkar jurnalist etikasına uyğun olaraq, mәqalә yerlәşdirilmәmişdәn öncә mәsәlә ilә bağlı "Azercell Telekom" MMC-nin rәsmi mövqeyi soruşulmayıb vә heç bir dәqiqlәşdirilmә aparılmayıb.

Yuxarıda sadalanan mәqamları nәzәrә alaraq, oxucuları bu növ xәbәrlәrdә qeyd edilәn mәlumatlara inanmamağa sәslәyirik.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Pentaqonun "ölümsaçan silahı" laboratoriyadan qaçdı - Borrelioz xәstәliyinin mәnbәyi...

**Pentaqon gәnәlәrdәn "bioloji silah" yaratmaq istәyib, Amerika mediası yazır.**



"Sputnik Azәrbaycan" xәbәr verir ki, belә bir iddianı Konqresin Nümayәndәlәr Palatası irәli sürüb. İttihama әsasәn, ABŞ müdafiә nazirliyi 1950-1975-ci illәrdә gәnә vә digәr hәşәratlar üzәrindә tәcrübәlәr apararaq onları bioloji silaha çevirmәyә çalışıb. Lakin namәlum sәbәbdәn hәşәratlar sonradan tәbiәtә buraxılıb. Güman edilir ki, son dövrlәrdә Borrelioz (Laym) xәstәliyinin geniş yayılması mәhz Pentaqonun hәşәratlar üzәrindә apardığı tәcrübәlәrlә әlaqәlidir. Nümayәndәlәr Palatası artıq tәhqiqat aparmağı tәlәb edib. Belә ki, respublikaçı konqresmen Kris Smitin mәsәlә ilә bağlı tәklif etdiyi düzәlişlәr 2020-ci ilin müdafiә büdcәsinә dair qanun layihәsinә әlavә edilib. Düzәlişlәrә әsasәn aparılacaq tәhqiqat çәrçivәsindә Pentaqon bu mәsәlә ilә bağlı suallara cavab vermәli olacaq. "Roll Call" nәşrinin verdiyi mәlumata әsasәn, amerikalı hәrbçilәrin hәqiqәtәn dә bu cür eksperimentlәr apardığı üzә çıxsa Pentaqon bununla bağlı Nümayәndәlәr Palatasını vә Senatın silahı qüvvәlәr komitәlәrinә hesabat vermәli olacaq. Müdafiә nazirliyi, hәmçinin bu tәcrübәlәrә mәruz qalmış gәnә vә hәşәratların tәsadüfәn vә ya qәsdәn tәbiәtә buraxıldığı iddialarına cavab vermәlidir. Qeyd edәk ki, Borrelioz adı ilә dә tanınan Laym xәstәliyini "Borrilia" adlı bakteriyalar törәdir. Bu bakteriyaların әsas daşıyıcısı gәnәlәrdir. Borreliozun ABŞ әrazisindә әsas törәdicisi "Borrelia burgdorferi" bakteriyasıdır. Avropa vә Asiyada isә bu xәstәliyә әsasәn "Borrelia miyamotoi", "Borrelia afzeli", "Borrelia garinii", "Borrelia bavariensis" vә "Borrelia spielmanii" bakteriyaları sәbәb olur. Borreliozun vaxtında vә düzgün müalicә olunmaması xәstәlәnmiş şәxsin әlilliyi vә hәtta ölümü ilә nәticәlәnә bilәr.




**Qoç** - Günün ilk yarısında xırda problemlәr nigaranlıq yaradacaq. Çoxdan bәri hәllini tәlәb edәn mәsәlә yenidәn gündәmdәdir. Tәlәsik davranmayın, düşünülmәmiş qәrarlar vermәyin. Axşam saatlarında planlar qәflәtәn dәyişә bilәr.


**Buğa** - Emosional, gәrgin gündür. Şәxsi planlarınızı reallaşdırmaq üçün müstәqil çalışaraq tәk qala bilmәyәcәksiniz. Ailә üzvlәrinin yardım istәklәrinә soyuq yanaşsanız, münaqişә istisna deyil.


**Əkizlәr** - Bilik vә bacarıqlarınızı tam nümayiş etdirin. Ətrafınızdakı insanlar sizdәn tәşәbbüskarlıq, tәşkilatçılıq bacarığının izharını vә ümumi mәqsәdlәrә çatmaq üçün pozitiv davranış gözlәyirlәr.


**Xәrçәng** - Narahatlıq vә tәlaşa qapılaraq fәsadları ağır ola bilәcәk sәhvlәrә yol vermәyin. Günün ikinci yarısında münasibәtlәrdәki problemlәri aradan qaldırmaq üçün tәşәbbüskar siz olun.


**Şir** - Emosiyalarınız artacaq, hisslәriniz aktivlәşәcәk. Öz mövqeyini absolyut hәqiqәt sayan insanlarla ehtiyatlı davranın. Yalnız peşәkar fәaliyyәt müstәvisindә mübahisәlәr etmәk olar.


**Qız** - Eyni vaxtda bir neçә işә başlamayın. Yalnız tәcili hәll tәlәb edәn, cari mәsәlәlәrlә mәşğul olun. Gecikmә, tәxirәsalma, çalışdığınız insanların qeyri-dәqiqliyi istisna deyil. Anlaşılmazlıq münaqişә vәziyyәti yarada bilәr.


**Tәrәzi** - Hadisәlәrә süni tәkan vermәyin. Spontan olayların mәcrasında hәrәkәt etmәyin. Bununla yanaşı, situasiyanı nәzarәtdә saxlayın. Yalnız öz maraqlarınızı düşünәrәk başqalarının mәnafelәrini kobud şәkildә qulaqardına vurmayın.


**Əqrәb** - Qarşınıza konkret mәqsәd qoyubsunuzsa, plana uyğun hәrәkәt edin. Qәtiyyәtli, iradәli vә әzmkar olun. Dürüst kursla irәlilәdiyinizә әmin olun. Peşәkarlığınızı nümayiş etdirin.


**Oxatan** - Tәlәskәnliyә yol vermәyin, aramla çalışın. Qәrarların qәbulunda müstәqil olun. Müәyyәn addımları әtrafınızdakı insanlarla razılaşdırmalısınızsa, emosional amillәri mütlәq nәzәrә alın.


**Oğlaq** - Pozitiv olun, bәdbin fikirlәrdәn uzaq durun. Tәnbәllik etmәyin. Ailә qayğıları vә mәişәt işlәrini ön plana çıxararaq bilavasitә mәşğul olmanız gәrәkәn mәsәlәlәri unutmayın. Alış-veriş üçün münasib zamandır.


**Dolça** - Daşınmaz әmlak vә әrzaqla bağlı әmәliyyatlar uğurlu nәticә verә bilәr. Əldә etdiyiniz nailiyyәtlәrinizin әtrafınızdakı insanlar tәrәfindәn tәqdirini gözlәmәyin. Kimsәyә fikir vermәdәn irәlilәyin.


**Balıqlar** - Rahatlığa can ataraq qarşınızdakı sәdlәri vә manelәri görmәzdәn gәlmәyin. Çәtinliklәr hәllini tәlәb edir. Yaşam arealının rekonstruksiyası üçün әlverişli zamandır. Psixoloji amillәrә diqqәtli yanaşın.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Uşaqlarda göz patologiyaları

**Göz xәstәliklәrinin bir çoxu uşaq yaşlarında meydana çıxır.**

Bu sәbәbdәn erkәn diaqnozun qoyulması vә düzgün müalicәnin seçilmәsi çox önәmlidir.

"Milli.Az" xәbәr verir ki, Akademik Zәrifә Əliyeva adına Milli Oftalmologiya Mәrkәzindәn AZƏRTAC-a bildiriblәr ki, uşaqlar 1 yaşında, mәktәbә getmәzdәn әvvәl vә mәktәb vaxtı mütәmadi olaraq göz müayinәsindәn keçmәlidirlәr.

**Əgәr uşaqlar uzağa baxanda gözlәrini qıyırlarsa, gözlәrindә çәplik, qızartı vә sulanma varsa, balacalar gözlәrini çox qaşıyırlarsa, әşyaları gözlәrinә çox yaxın tuturlarsa, hansına bir әşyaya başlarını әyәrәk baxırlarsa, oftalmoloqa müraciәt olunmalıdır.**

Bununla yanaşı, yarımçıq doğulmuş körpәlәr vә ailә üzvlәrindә görmә patologiyaları olan uşaqlar göz hәkiminin nәzarәtindә olmalıdırlar.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.